

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**İki prezidentin həyatına toxunan həkim – Zərifə Əliyeva**



3

SƏS

№ 217 (6900)

28 noyabr 2023-cü il.
Qiyməti 60 qəpik

# Beynəlxalq aləmdə idman ənənələri ilə tanınan Azərbaycan



2

*Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi beynəlxalq standartlara uyğun qurulub*

# Xaricdən maliyyələşən XƏYANƏTKAR QRANT ABZAS MEDİASI




4

**Media orqanının maliyyə qaynağı şəffaf deyilsə...**



8

**AXCP-nin qeydiyyatı ləğv edilə bilər**



12

**Qonşu məsləhəti ilə dərman içməyin!**



14

**Hansı ipoteka növü daha sərfəlidir?**



16

**"Xristian klubu" Qarabağda qan axtarır...**



5

# Beynəlxalq aləmdə idman ənənələri ilə tanınan Azərbaycan

***Azərbaycanda idman inkişafının ən yüksək dövrünü yaşayır. İdmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib və dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş kimi qəbul olunur.***

Vurğulamaq yerinə düşər ki, ölkəmizin idman sahəsində əldə etdiyi uğurlar beynəlxalq idman təşkilatları tərəfindən maraqla qarşılanır və ölkəmizdə saysız-hesabsız mötəbər beynəlxalq turnirlər, dünya və Avropa çempionatları keçirilir. İdmanın bugünkü inkişaf səviyyəsi Azərbaycan Prezidenti İlham Əliyevin həm dövlət başçısı, həm də Milli Olimpiya Komitəsinin rəhbəri kimi bu sahəyə ayırdığı diqqətin nəticəsidir.

Son 20 ildə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.

Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində aparılan əsaslı təmir idmana ayrılan diqqətin daha bir təzahürüdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzində əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.



Bakıda cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi beynəlxalq standartlara uyğun qurulub







### İNŞA OLUNAN NƏHƏNG İDMAN KOMPLEKSLƏRİ AZƏRBAYCANIN İDMAN POTENSİALININ NÜMAYİŞİDİR

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. Müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub.

Qeyd edək ki, bu gün Azərbaycan dünyada həm də güclü idman ənənələri ilə tanınır. İdmanın inkişafı ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Son illərdə inşa olunan nəhəng idman kompleksləri Azərbaycanın idman potensialının nümayişi, gənclərin bu sahəyə meylinin artması ilə nəticələnib. Bütün bunlar isə ilk növbədə, dövlətimizin başçısının idmanın inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi idmanın inkişafı, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqətdə saxlanılacaq. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da idmançılara diqqəti idman ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir.

### MƏRKƏZ BEYNƏLXALQ CÜDO FEDERASİYASININ STANDARTLARINA UYĞUNDUR

Qeyd edəək ki, olimpiya növləri üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi 1967-ci ildə istifadəyə verilib. Kompleksin adı 1997-ci ildə dəyişdirilərək Olimpiya növləri üzrə Milli Komandalar üçün Təlim-Məşq Mərkəzinə çevrilib. İdman qurğusu fəaliyyətini bundan sonra cüdo üzrə milli komandalar üçün Təlim-Məşq Mərkəzi kimi davam etdirəcək.

Mərkəzdə əsaslı təmir və tikinti işləri yüksək keyfiyyətlə aparılıb və bu ilin noyabrında başa çatdırılıb. Mərkəzdə qadınlar və yeniyetmələr üçün böyük idman zalı yaradılıb. Burada eyni zamanda 60 idmançı məşq edə biləcək. Mərkəzdəki bütün məşq zalları Beynəlxalq Cüdo Federasiyasının standartlarına uyğun olan tatamilər ilə təchiz olunub. İdman qurğusunun fiziki hazırlıq zalı da ən yüksək standartlara cavab verir. Məşqçilərin otaqlarında da məhsuldar fəaliyyət üçün hər cür şərait yaradılıb.

Təlim-Məşq Mərkəzinin əhəmiyyətini artıran amillərdən biri də burada 28 yerlik müasir otel bölməsinin yaradılmasıdır. Oteldə həm idmançıların, həm də məşqçilərin qalması və istirahəti üçün hər cür imkan var. Mərkəzdə çalışacaq 50-dən artıq əməkdaş üçün də əsas binada hər bir şərait yaradılıb. Buradakı restoranda idmançılara yüksək səviyyədə xidmət göstəriləcək. Kompleksdə idmançıların sağlamlığı da nəzərə alınıb. Həkim otağı, fizioterapiya və masaj otaqları idmançıların ilkin reabilitasiyası və müalicəsi üçün lazımi cihaz və avadanlıqlarla təchiz edilib.

### BEYNƏLXALQ YARIŞLARDA RESPUBLİKAMIZIN ŞƏHƏR VƏ RAYONLARINDA CÜDO ZALLARI TƏMİR OLUNUR

Regionlarda da cüdo üzrə infrastrukturun təkmilləşdirilməsi Azərbaycan Cüdo Federasiyasının əsas fəaliyyət istiqamətlərindən biridir. Belə ki, 2023-cü ildə Gəncə, Ağstafa, Zaqatala, Goranboy, Zəngilan rayonu Ağalı kəndi, Sabirabad, Zirə və Sumqayıtda cüdo zalları istifadəyə verilib. Respublikamızın bir neçə şəhər və rayonlarında isə cüdo zallarının təmiri davam etdirilməkdədir.

Ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində müəyyən olunmuş siyasət, respublikamıza uğurlar gətirməklə yanaşı, onun dünya miqyasında imicini də yüksəldib. Prezident İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq, ölkənin davamlı iqtisadi inkişafı təmin edilib ki, bu da, bütün sahələrdə, eləcə də idman sahəsində böyük nailiyyətlərin əldə olunmasına səbəb olub. Azərbaycan dünyanın idman arenasında, artıq özünə layiqli yer tutub, istər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə. Təbii ki, idman və bədən tərbiyəsi hər bir ölkənin beynəlxalq aləmdə tanınması, nəslin sağlam inkişafı üçün önəmli vasitələrdən olduğundan, bu sahəyə dövlət tərəfindən böyük diqqət ayrılır. Məhz bu səbəbdən də, Azərbaycan dövləti idmanın, xüsusilə də, Olimpiya Hərəkatının inkişafına xüsusi diqqət yetirir. Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə özündə yeni keyfiyyət dəyişikliklərini əxz edən Azərbaycanın Olimpiya hərəkatı tezliklə sürətli inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub.

Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb.

Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İki prezidentin həyatına toxunan həkim – Zərifə Əliyeva







**Şam yanmırsa, yaşamır demək,**
**Onun da yaşamağı yanmağındadır...**

Bəlkə də, xarakterinin, adına və peşəsinə həkk olunduğu nadir insanlardandır o. Adının haqqını verəcək qədər zərif, incə ruhlu, peşəsinin qiymətini verəcək qədər lətif, loğman insan idi Zərifə Əliyeva. Həkim üçün lazım olan bütün keyfiyyətlər –dürüstlük, məsuliyyət, zəka, xeyirxahlıq, etibarlılıq, fədakarlıq, nəzakət, iradə, cəsarət, təmkin, qətiyyət - bütün bunlar onun şəxsində cəmləşmişdi. Öz ömrünü şam edib xəstələrinə işıq olan dəyərli alimin bu il 100 illik yubileyidir.

Tarixən bütün ləyaqətli loğmanlar üçün öz ömrü yox, başqalarının ömrü əhəmiyyətli olub. Onları təbib, loğman edən də məhz bu xüsusiyyətləri olub. Azərbaycanın ictimai-tibb tarixində silinməz iz qoymuş belə böyük insanlardan biri də Zərifə Əliyevadır. Vəfatının 38-ci ilində belə insanların dünən aramızda imiş kimi xatırladığı, haqqında keçmiş zamanda danışmadığı böyük alim, dəyərli loğman... İnsan var, vəfatı ilə bir evdən gedir, insan var, bütöv bir eldən. Zərifə Əliyeva vaxtsız vəfatı ilə eldən gedən insanlardan idi.

## Nur paylayan şəfalı əllər

Bu il görkəmli pedaqoq, istedadlı alim, bacarıqlı həkim, böyük ictimai xadim və ən əsası gözəl qadın, dəyərli ana kimi tanıdığımız Zərifə Əliyevanın 100 illik yubileyi tamam olur. Azərbaycan xalqı onu həmişə böyük ehtiramla yad edir. Dəyərli oftalmoloq alimimiz Zərifə Əliyevanın yüzlərlə insana işıq bəxş edib, qaranlığa həkk olan minlərlə insanı qərq olduğu qaranlıqdan çəkib çıxarıb. O zülmətə qərq olan gözlərə nur verib, köməksizlərə həmdəm olub- əsl insan, əsl həkim olub.

Dövrünün və dövrümüzün bir çox həkimi üçün əhəmiyyətsiz olan "Hippokrat andı" Zərifə xanım Əliyeva üçün toxunulmaz dəyər olub, o öz peşəsinə ömrü boyu vicdanla yanaşıb. Səmərəli və zəhmətsevər fəaliyyətində əsl insani dəyər olan vicdana, səmimiyyətə böyük önəm verib. Bütün bilik və gücünü, istedad və bacarığını insanların sağlamlığının qorunmasına və yaxşılaşmasına sərf edib, saysız-hesabsız müalicələri ilə göz xəstəliklərinin qarşısını almağa səy göstərib. Tibb elminin dövrümüzdəki texnoloji imkanlarının olmadığı bir zamanda o öz yenilikçi ideyaları ilə "olmaz!" deyilən çox şeyi oldurub, müalicəsi mümkünsüz hesab edilən çox xəstənin dərdinə əlacı mümkün qılıb.

Zərifə Əliyeva oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb, fədakar həkim kimi bir sıra göz xəstəliklərinin müalicəsində, o cümlədən Azərbaycanda traxomanın kökünün kəsilməsində böyük əmək sərf edib. Fəaliyyəti boyunca onlarla araşdırmaya, elmi məqalələrə imza atan Zərifə Əliyeva nadir sahə olan iridodiaqnostika və iridoterapiya problemləri ilə ciddi məşğul olub, bu sahəyə dair iki monoqrafiya hazırlayıb. Onun monoqrafiyaları özündən sonra bir çox xələfinə mayak olub.

Qeyd etmək lazımdır ki, dünya miqyasında iridodiaqnostikaya aid kitabları ilk dəfə Zərifə xanım Əliyeva yazıb. Zərifə Əliyeva keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafat olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. O, həmçinin, Azərbaycanda oftalmologiya sahəsində ilk akademik qadın olub.

Zərifə xanım Azərbaycan tibb elminin tarixində, onun şöhrətlənməsində ləyaqətli yer tutmuş görkəmli alim və mütəxəssislərdən biri idi. Dünya tibb elminə yeni nailiyyətlər bəxş edib akademik adına yüksələn Zərifə xanım Əliyeva dəyərli ziyalı və alim kimi respublikamızın hüdudlarından kənarda da yaxşı tanınmışdı. Onunla birlikdə elmi iş aparanlar, çiyin-çiyinə çalışanlar, onun nailiyyətlərindən, yüksək mədəniyyətindən, nəcib xüsusiyyətlərindən hər zaman hörmət və ehtiramla danışıblar.

## Hətta oftalmologiya patriarxı belə ona heyran idi

1979-cu ildə Oftalmoloqlar Cəmiyyətinin Moskvada keçirilmiş iclasında Zərifə xanımın möhtəşəm çıxışı həmin illərdə mətbuatda çox yazıldı. Zərifə Əliyeva peşəkar bir natiq kimi həkimin mənəvi tərbiyəsi, dövrün ən müasir tibb etikası və mənəviyyatı məsələləri haqqında çox maraqlı məruzə ilə çıxış edib. Onun bu məruzəsi o vaxt dünya mətbuatında, tibbi məcmularda böyük-əks səda doğurub. Həmin çıxışdan sonra Sovet oftalmologiyasının patriarxı, akademik M.M.Krasnov ona yaxınlaşaraq qarşısında baş əyib və onun əlindən öpüb: "Mənim sadəcə sözüm yoxdur! Sizə heyranam!" – deyib.

Görkəmli alim Nadejda Puçkovskaya da öz xatirələrində Zərifə xanımı böyük ehtiramla yad edir. O yazır ki, Zərifə Əliyevanın fəal təşkilatçısı olduğu oftalmoloq qurultaylarının birində iştirak edən nümayəndələrdən birinin ayağı sınır. Puçkovskaya onun müalicəsinə Zərifə xanımın necə can yandırdığını yaxşı xatırlayır: "O, hər gün xəstəxanaya gəlir, xəstənin halına qəlbən yanır, hətta lazım olan şeyləri öz evindən gətirirdi ki, müalicəyə xeyri dəysin. Zərifə xanım xəstəyə bir-iki gün deyil, bütün müalicə müddətində istisnasız hər gün baş çəkdi".

Rusiyalı məşhur oftalmoloq, tibb elmləri doktoru, professor Z.M.Skripçenko Zərifə xanım Əliyeva haqqında xatirələrində onu "Qoruyucu mələk" adlandırır: "Bir dəfə Zərifə xanımla birlikdə həmkarlarımızdan birinin evində qonaq idik. O, yüksək intellektli adamların əhatəsində öz cəlbedici sadəliyi və həyat eşqi ilə seçilirdi. Siz təsəvvür edirsiniz, bir həkim fortepianoda musiqiyə xüsusi rəng verərək populyar melodiyalar, rəqslər ifa edirdi! O sanki tək həkim deyil, həm də peşəkar pianoçu idi. Zərifə xanım dinləyiciyə əsərin varlığını, mahiyyətini çatdırmağı bacarırdı. Zərifə Əliyevanın tələbələri ona professionallığın və müdrikliyin canlı nümunəsi olan professor kimi baxırdılar. O, həmişə məntiqli və eyni zamanda, səmimi danışırdı, yüksək nitq mədəniyyəti ilə seçilir və tələbələrində xüsusi həvəs yaradırdı".

Məşhur oftalmoloq, akademik A.Nesterov da onun haqqında həmişə böyük ehtiramla "Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli həkim idi." deyə danışırdı.

## Ömrünü iki prezidentə həsr edən qadın

Ümummilli Lider Heydər Əliyev öz ömür-gün yoldaşı haqqında danışanda həmişə ondan güc aldığını, enerji qaynağının məhz Zərifə xanım olduğunu deyirdi. O, Zərifə xanımın ömrünün axırına qədər ləyaqətli ömür-gün yoldaşı, arxa-dayaq olmasından, həm işini, həm ailəsini hər şeydən uca tutduğunu qeyd edirdi. Zərifə xanımın vəfatından uzun illər sonra belə Heydər Əliyev onunla bağlı danışanda hər dəfə kövrəlir, göz yaşlarını boğa bilmirdi. Bir qadının dəyərini bundan artıq necə ifadə etmək olar ki?

Vəfatının 10-cu ildönümündə Ulu Öndər Heydər Əliyevin onun haqqında xatirələrindən: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti hamıya məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

## Müzəffər lider yetişdirən ana

Bütün anaların ortaq dəyəri övladıdır. Bütün anaların ortaq sevinci tərbiyə etdiyi övladının böyüyüb vətəninə, xalqına faydalı insan olmasıdır. Analar bu zaman öz əsəri ilə qürur duyur. Zərifə xanım bu gün haqq dünyasında olsa da övladının – müzəffər liderin nailiyyətlərini görür, yetişdirdiyi övladı ilə fəxr edir.

Prezident İlham Əliyev anası haqqında hər zaman böyük ehtiram və məhəbbətlə danışıb. O Zərifə xanımın xüsusiyyətlərinə, mehribanlığına, təvazökarlığına həmişə heyran olduğunu deyir: "Anam, atamın yalnız ömür-gün yoldaşı deyildi, eyni zamanda bütün işlərdə ona dayaq olurdu, onu dəstəkləyirdi. Ailəmizdə olan ab-hava, mühit, valideynlər arasında olan münasibətlər əlbəttə ki, bizi də tərbiyə edirdi. Yəni, ailədə tərbiyəni valideynlərimizin bir-birinə münasibətlərini görərək alırdıq".

Prezident xatırlayır: "1970-ci illərdə atam Azərbaycanda birinci katib vəzifəsində işlədiyi dövrdə Heydər Əliyevin həyat yoldaşının əlbəttə ki, müxtəlif imtiyazları və üstünlükləri ola bilərdi. Ancaq Zərifə xanım çox sadə bir insan idi, heç vaxt büruzə vermirdi ki, Heydər Əliyevin – birinci katibin həyat yoldaşıdır. Həmişə onun yanında sadə insanlar olurdu. Anam çox təvazökar idi. Bəziləri üçün o, necə deyərlər, son ümid yeri idi. Hətta tanımadığı adamlar belə müxtəlif xahişlərlə, müxtəlif şikayətlərlə onun iş yerinə gəlirdilər. O, çalışırdı ki, hər kəsə kömək göstərsin. Tanımadığı adamların xahişlərini gəlib atama çatdırırdı və o məsələlərin böyük əksəriyyəti öz həllini ədalətlə tapırdı. Zərifə xanım daim insanlara xidmət etmək, kömək göstərmək arzuları, amalları ilə yaşayırdı".

Zərifə Əliyevanın bütün həyatı insanlara xidmətə həsr olunub. Yüksək vətəndaş mövqeyi, həssaslığı, insanlara qayğı və diqqəti sayəsində xalqın etimadını qazanan Zərifə xanımın insanlara faydalı təsirinin sirri məhz bu yaradıcı qüvvədə, tükənməz mənəviyyatdadır. Zərifə xanım dəyərdir, yaxşılığın insan formasıdır, hörmətdir, əxlaqdır, təvazödür, doğruluqdur. Dünyaya gəlməsinin 100-cü il dönümündə tibb elmində əvəzsiz izlər qoyan, bir ömür xalqının xidmətində olan böyük alimi hörmət və sevgi ilə xatırlayırıq.

***Lalə Mehralı***

***Məqalə, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurasının "Bir ömür xidmətinizdə..." mövzusundakı birgə müsabiqəsinə təqdim edilir***

***Qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə külli miqdarda pul vəsaitlərinin gətirilməsi və şübhəli maliyyə əməliyyatlarının aparılması faktı ilə əlaqədar başlanmış cinayət işi üzrə barələrində həbs qəti imkan tədbiri seçilmiş "Abzas Media" xəbər portalının rəhbəri, baş redaktoru, layihə koordinatoru və həmin portalın fəaliyyəti haqda üzə çıxan məlumatlar təəssüf doğurur. çünki ölkəmizin əleyhinə olan xarici donor təşkilatları tərəfindən maliyyələşən xəyanətkar qrant mediası cəmiyyətin güzgüsü sayılan kütləvi informasiya vasitələrinin adına ləkədir.***




# Xaricdən maliyyələşən XƏYANƏTKAR QRANT MEDİASI

***"Abzas Media" portalının rəhbərinin, baş redaktorunun, yaxud layihə koordinatorunun min cür fırıldaq yollarla, hiyləgərliklə nağdlaşdırdıqları külli miqdarda vəsaitləri ölkəmiz əleyhinə olan həmin o donor təşkilatlardan hansı xidmətləri müqabilində aldıqları hər halda, məntiqi və düşündürücü sualdır. Şübhəsiz ki, Azərbaycan əleyhinə olan xarici donor təşkilatları həmin vəsaitləri sözügedən portala ölkəmizin inkişafı, irəliləyişi və yüksəlişi üçün ayırmayıb. Əksinə, həmin vəsaitlər tamamilə başqa məqsədlər, təxribatlar, xaos və ölkəmiz əleyhinə planlaşdırılan çirkin niyyətlər üçün ayrılıb və həmin vəsaitlər müqabilində fəaliyyət göstərənlər, dövlətimizə qarşı olan çirkin niyyətlərə xidmət edənlər yalınız xəyanətkarlardır.***

Ödəniş sənədlərinin nüsxələrindən ortaya çıxan məlumatlar təsdiq edir ki, xəyanətkarlara külli miqdarda vəsait köçürülüb və bu köçürmələrin nəyin müqabilində olduğu da artıq bəllidir. Nəyin müqabilində olması isə, məsələnin mahiyyətini, çirkin niyyətləri açıb ortaya qoyur və hətta hazırlanan layihələrin adları belə onların məzmunundan, nəyə hesablandığından xəbər verir. "Azərbaycan Respublikasının qoşulduğu Beynəlxalq Konvensiyalara əməl etməsinin monitorinqi", "Məhkəmə orqanları tərəfindən qəbul edilmiş qərarların araşdırılması", "Araşdırılmamış 100 cinayət", "Turizm və kənd təsərrüfatı sahələrində korrupsiyanın araşdırılması" və başqa bu kimi oxşar adlarla ortaya qoyulan layihələr əslində elə hər şeydən xəbər verir. Ələlxüsus da ondan xəbər verir ki, içimizdəki xainlər məhz dövlətimiz, dövlətçiliyimiz əleyhinə fəaliyyət göstərən xarici donor təşkilatlarına həmin vəsaitlərin müqabilində satılıblar. Bunun adı satqınlıqdır, xəyanətdir və özlərini azad, müstəqil adlandırmaq istəyi bu satqınlığa və xəyanətə qətiyyən haqq qazandıra bilməz. Çünki azad ölkənin azad, müstəqil vətəndaşı olmaq, ölkə və dövlət əleyhinə fəaliyyət göstərmək üçün heç bir haqq vermir. Azad fikir, hətta müxalifətçilik dövlətə, ölkəyə qarşı olmur və hər bir vətəndaş öz vətəndaşlıq borcunu, mükəlləfiyyətini bilərək ölkəsinə də, dövlətinə də hər daim sadiq olmalıdır.

Araşdırmalar nəticəsində ortaya çıxan məlumatlar təsdiq edir ki, Qərb mərkəzləri, xüsusən də ABŞ ölkəmizdə agentura şəbəkəsi qurub və onları idarə etmək, nəzarətdə saxlamaq üçün də ən çox maliyyə dəstəyi metodundan istifadə edir. Sözsüz ki, bu metodun tətbiqi üçün də başda USAİD olmaqla, NED, İREX, Marşal Fondu və digərləri kimi çoxlu sayda donor institutları və yardım fondları yaradılıb, hansıki bununla da icra mexanizmləri belə formalaşdırılıb. "Demokratik inkişafa dəstək vermək" adı altında ölkəmiz əleyhinə fəaliyyət göstərənlər ayırdığı qrantlarla, külli miqdarda vəsaitlərlə məhz xəyanətkar xislətli insanları şirnikləndirərək öz çirkin niyyətlərinə xidmət etmələri üçün istifadə edirlər və onlar məhz Ülvi kimilərinin, Sevinc kimilərinin timsalında satılırlar. Ona görə də ölkəmiz əleyhinə olan məhz USAİD kimi bir qurum barəsində hamının ətraflı şəkildə məlumatlı olması gərəkir. Bu qurumun hələ uzun illər bundan qabaq ifşa edildiyi cəmiyyətimizə məlumdur.

USAİD vasitəsi ilə ABŞ-ın xarici ölkələrə nəzarəti gücləndirmək, çirkin niyyətini reallaşdırmaq planları artıq göz önündədir. Dırnaqarası "yardım təşkilatı" kimi özünü sırıyan USAİD 27 milyard dollar büdcəyə malikdir və bu qurum ancaq 2023-2025-ci illər ərzində guya "müxtəlif ölkələrdə vətəndaş camiyyətləri quruculuğuna dəstək vermək üçün" 9 milyard dollarlıq büdcə də nəzərdə tutub. Əslində isə, məqsədi müxtəlif ölkələrdə siyasi proseslərə müdaxilə etmək, cəmiyyətdə qarşıdurma yaratmaqdan ibarətdir. USAİD rəhbəri Samanta Pauerin kimliyi də bəllidir. Övladının adını qondarma "erməni soyqırımı" şərəfinə qoyan, Ruben Vardanyan kimi bir maliyyə fırıldaqçısı ilə dostluq edən, tədbirlərinə qatılan, onun həbs edilərək Bakıya gətirilməsindən sonra Azərbaycana səfər edib danışıqlar aparan Pauer ermənidən betər biridir və onun məqsədinin nədən ibarət olduğu da cəmiyyətimiz üçün qaranlıq deyil. Bununla belə, həmin qurumun vəsaitləri ilə maliyyələşən xəyanətkarların fəaliyyəti qaranlıq olub, amma bu vaxta qədər. İndi məhz Ülvi Həsənli və Sevinc Abbasova kimilərinin əməlləri araşdırılır və müvafiq hüquqi qiymət verilir. Bununla belə cəmiyyətimiz özü də onların tipində olan xayanətkarlara öz qiymətini verir və ələlxüsus beləleri KİV nümayəndəsi kimi özlərini sırımaq istəsələr də, onlar uzaq başı xəyanətkar qrant mediası kimi tanına bilərlər.

Rəhbəri Samanta Pauer olan qurumun fəaliyyəti qonşu ölkələrdə də, məsələn Gürcüstanda da ifşa olunub və bu barədə cəmiyyətimizin də məlumatlı olması faydalıdır. Beləki, bəlli olub ki, "xəstələrə humanitar yardım göstərilməsi" mövzusunda Tbilisidə təlim keçən USAİD təlim iştirakçılarına "dövlət çevrilişi hazırlamağın metodları" barədə dırnaqarası "təlim" keçirmiş. Yəni, bu qurumun fəaliyyəti, belə demək mümkünsə, "missiyası" ölkələrdə təxribatçı əməllər törətməkdir və bunun üçün də xain xislətlilərin külli miqdarda vəsaitlərlə satın alınması tətbiq olunan taktikadır. Ölkəmiz əleyhinə olan həmin o donor təşkilatları öz vəsaitlərini bir zamanlar yalnız müxalifət düşərgəsində olan siyasi partiyaları ələ almaq, onları idarə etmək üçün nəzərdə tuturdusa, indi artıq məhz "Absaz Media" portalı timsalında xəyanətkar kütləvi informasiya vasitəsi hədəfə alınıb və onlar sözün əsl mənasında elə xəyanətkar qrant mediası adlandırılmalıdırlar.

Məsələ burasındadır ki, USAİD timsalında Qərb mərkəzləri bütün sahələrə "burun soxmaqla" cəmiyyətimizə mənfi təsir göstərməyə çalışıblar. Xatırladığımız kimi, Azərbaycanda radikal feminizmin təşkilatlanmasında, ABŞ-ın təxribatçı institutlarının böyük "rolu" olub və feministlərin aktivləşdirilməsində yaxından iştirak etdikləri də bəllidir. Ailə institutuna qarşı çıxan, qeyri-ənənəvi münasibətləri təbliq edən, milli düşüncəyə zidd olan, cəmiyyətin harmoniyasını belə pozan qrupların formalaşmasına, təşkilatlanmasına dəstək verilməsi özü də ölkəmiz əleyhinə fəaliyyət sayılır. Çünki həmin o Qərb institutlarının feministləri dəstəkləməsi, əxlaqi dəyərlərdən uzaq, milli adət-ənənələrimizə yad, milli mənliyə uyğun olmayan cəmiyyət formalaşdırmaq niyyətinin təzahürü idi, hansıki cəmiyyətimiz bunu, yəni həmin rüsvayçılığı hansı ikrah hissi ilə qarşıdığı da yadımızdadır. O da yadımızdadır ki, həmin o "feminist qrup" ABŞ səfirliyi qarşısında aksiya keçirərək, guya "Gədəbəy hadisələri zamanı zərərçəkmişlərin hüquqlarını müdafiə edərkən" həmin o Ülvi Həsənli də feministlər cərgəsində diqqəti cəlb etmişdi. Sevinc Vaqifqızının "feminist qrup" liderləri sırasında olması da, radikal feminizmin təşkilatlandırılmasında rolunun olduğu da heç yaddan çıxan deyil. Bir sözlə, bu xəyanətkar insanlar Qərb institutlarına hər mənada xidmət etdikləri faktlarla öz təsdiqini tapır. Feminislər sırasında özlərini tapanların, məhz elə bir sıra "təxribatçı şəbəkənin" diqqətini çəkməsi onların vasitəsi ilə çirkin fəaliyyətlərinin xəyanətkar qrant mediasına ötürülməsi ilə nəticələndi. Həmin bu qrant mediasının da məhz "Sərhədsiz Reportyorlar" kimi tanınan və burnunu hərhansı ölkədə siyasi proseslərə soxan, hadisələrə müdaxilə edən təşkilata gedib dirəndiyi də artıq sirr deyil. Həmin təşkilatın mahiyyəti də elə USAİD və onun kimi donor təşkilatlarının mahiyyəti ilə demək olar ki, eynidir. Məsələ burasındadır ki, xəyanətkar qrant mediası da birbaşa həmin o "Sərhədsiz Reportyorlar" deyilən təşkilata "qul" kimi xidmət edir.

Diqqət çəkən məqamlardan ən maraqlısı odur ki, Ülvi Həsənlinin saxlanılması barədə ölkə mətbuatında ilk məlumat yayımlandıqdan düz 31 dəqiqə sonra "Sərhədsiz Reportyorlar" bu barədə bəyanat yaydı. Təəccüblüdür, bu qədər çevik, bu qədər cəld olmaq mümkündürmü? Məlumatı almaq, tərcümə etmək, emal etmək və yayımlamaq, bəyanat yaymaq üçün bu qədər zaman fasiləsi kifayət edə bilməzdi axı. Belə çıxır ki, həmin o "Sərhədsiz Reportyorlar" məlumatın mətnini əvvəlcədən hazırlayıblarmış. Yaxud da elə məhz Həsənlinin özü kimi xəyanətkarlar dərhal məlumat ötürüblər. Əks halda, bu qədər tez bir zamanda "Sərhədsiz Reportyorlar" tərəfindən bəyanat verilməsi mümkünsüz sayılır. Bu bəyanatın verilməsi üçün ən azından bir neçə saat vaxt tələb olunurdu axı. Doğrudur, "Sərhədsiz Reportyorlar", yaxud da onlar kimi qondarma "Azadlıq Radiosu" timsalında dırnaqarası "azadlıq və demokratiya carçıları" sərf etməyən məlumatları nəinki saatlar, hətta aylar, illər belə keçməsinə baxmayaraq hələ də yaymayıblar. Amma hər halda, 2020-ci il 11 noyabr tarixində İrəvanda "Azadlıq Radiosu" redaksiyasına basqın barədə "Sərhədsiz Reportyorlar" bu vaxta qədər, daha dəqiq desək, üç il keçməsinə baxmayaraq hələ də məlumat yaya bilməyibsə, Ülvi Həsənlinin saxlanılması xəbərindən 31 dəqiqə müddət keçər-keçməz bəyanat verilməsi "rekord" kimi qeydə alınmalıdır. Ən azından, qeyd olunan müddətdə, fiziki cəhətdən çatdırılması mümkün olmayan belə çeviklik təcrübədə rast gəlinməyən hal olaraq tarixə yazılmalıdır. Həm də ona görə "rekord" olaraq qeydə alınmalıdır ki, Həsənli gündüz saatlarında saxlanılarkən Nyu-Yorkda gecə saatları hökm sürürdü və belə çıxır ki, "Sərhədsiz Reportyorlar" gecə də yatmayıb fəaliyyət göstərirlərmiş. Özü də fəaliyyətlərində Azərbaycanın izlənilməsi xüsusi yer tuturmuş ki, gecə yuxularına haram qatıb məxsusi olaraq, 31 dəqiqə keçmədən belə bəyanat da veriblər.

**Ardı Səh. 5**

# Xaricdən maliyyələşən XƏYANƏTKAR QRANT MEDİASI

**Əvvəli-Səh-4**

Görəsən, Ülvu Həsənli, onun taleyi bu qədər vacib sayılırdı ki, gecəliklə, yubanmadan bəyanat verildi? Yaxud, "Absaz Media" belə sayılıb-seçilən portal idi ki, "Sərhədsiz Reportyorlar"ın diqqətini dərhal cəlb etdi? Ritorik suallar olduqca çoxdur və hər biri də məsələnin mahiyyətinin nədən ibarət olduğunu dərhal ortaya qoymaq üçün kifayət edir.

Nəzərə çatdıraq ki, həmin o "Absaz Media" portal nə abunə sistemi ilə işləmir, nə "məhsulunun" alıcıları başının üstündə deyil, nə də sərbəst oxucular üçün kod sistemi tətbiq edilməyib. Bir sözlə, həmin bu portal sadəcə olaraq, öz informasiyalarını ödənişsiz olaraq yayır və hətta həmin portalda nə elan, nə reklam belə yoxdur. Bu o deməkdir ki, həmin portalın beynəlxalq standartların qəbul etdiyi maliyyə mənbəyi, qazanc yeri görünmür. Dərhal sual yaranır ki, bəs o zaman həmin o portalın maliyyələşməsi haradandır? Onun redaksiya ofisinin icarəsi, texniki avadanlıqlarının təminatı, əmək haqlarının təmin edilməsi, üstəlik, istədikləri zaman xarici ölkələrə səfərləri hansı vəsaitlər hesabına həll edilir? Axı bütün bunlar üçün, daha dəqiq desək, təminatlı bir fəaliyyət üçün kifayət qədər yetərli maliyyə vəsaiti tələb olunur. Belə bol-boluna maliyyələşdirilmə nəyə görə və kim tərəfindən edilə bilər? Özü də normal oxucusu olmadığına görə, yəni ictimai rəydə oxucusu yox dərəcəsində olan fikir formalaşmasın deyə saytının üzərində ümumi sayğaçı belə qoyulmayan portal bu qədər maraqlı imiş kimə isə? Bu qədər vəsaiti, üstəlik də ofisində artıq ehtiyat olaraq saxlanılan 40 min avronu nə səbəbə, hansı xidmətlərinə görə Ülvi Həsənliyə, Sevinc Vaqifqızına və onların oxucusu yox dərəcəsində olan portalına verirlər? Əlbəttə ki, xəyanətkar qrant mediası olduqlarına və satqın fəaliyyətlərinə görə...

Məhz USAİD kimi bir qurumun timsalında, Qərb mərkəzlərini Azərbaycandakı inkişaf, tərəqqi, xalqımızın qələbələrə imza atması, ölkəmizdə gedən bərpa və quruculuq işləri, nəhəng layihələr qətiyyən qane etmir. Xüsusən də ABŞ-ın istədiyi siyasəti yeritməkdən imtina edərək, öz milli maraqları çərçivəsində siyasət yürüdən Azərbaycan məhz buna görə hədəfə alınıb. Məqsəd də xalqımızın, dövlətimizin iradəsinə təsir göstərməkdir. Bizim həmrəyliyimiz, cəmiyyətimizin birliyi, xüsusən də xalqımızla dövlətimiz arasında birlik Qərb mərkəzlərinə rahatlıq tapmağa imkan vermir. Qonşu ölkələrin, xüsusən də, Gürcüstanın, Ermənistanın misalında görürük ki, hərhansı bir cəmiyyəti parçalamaq, ölkəni qarşıdurma meydanına çevirmək, sonra da idarə etmək niyyəti ilə ara qarışdırmaq istəyənlər daxili siyasətə burun soxaraq, müdaxilə etməyə çalışırlar. Sözsüz ki, hər bir dövrdə, hər bir cəmiyyətdə xainlərdən, xəyanətkarlardan istifadə edildiyi kimi, ölkəmizin də əleyhinə fəaliyyət göstərən donor təşkilatlarının vəsaitləri ilə maliyyələşən xəyanətkarlardan istifadə olunub və təəssüf ki, cəmiyyətimizdə həmin o donorların vəsaitləri ilə xaricdən maliyyələşən xəyanətkar qrant mediası da fəaliyyət göstərib. Hər halda, saxlanılan Ülvi Həsənli, Sevinc Vaqifqızı və Məhəmməd Kekalovun istintaqı zamanı onlarla əlbir olan, eyni şəkildə xəyanətkar qrant mediası ünsürləri ifşa olunacaq və lazımi cəzasını həm hüquqi müstəvidə, həm də cəmiyyətimiz tərəfindən alacaq, çünki xalqımız tarix boyu xəyanətkarları bağışlamayıb...

***İnam Hacıyev***

# "Azərbaycanın güclü olması üçün iqtisadiyyatının inkişafı çox vacibdir"



**MÜNASİBƏT**

"BMT-nin Mərkəzi Asiya ölkələrinin iqtisadiyyatları üçün xüsusi proqramı SPECA-nın iştirakçı dövlətlərinin başçılarının Zirvə görüşünün Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzunun göstəricisidir. Çünki belə mötəbər tədbirlərin Azərbaycanın mərkəzində keçirilməsi və bu tədbirlərdə nüfuzlu dövlət rəhbərlərinin iştirakı ölkəmizin təbliği baxımından çox əhəmiyyətlidir. Bu tədbir Azərbaycan üçün önəmlidir". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin komitə sədri Tahir Rzayev deyib. Onun sözlərinə görə, tədbir müddətində həyata keçirilən işlər təqdirəlayiqdir və bunu forumda iştirak edən dövlət başçıları yüksək qiymətləndiriblər: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Zirvə görüşündəki çıxışı nəinki ölkəmizdə, eyni zamanda, dünyada böyük əks-səda yaradıb. Çünki dövlət rəhbəri İlham Əliyev bu görüşdə də xatırladıb ki, Azərbaycan sülhün, sabitliyin və əmin-amanlığın tərəfdarıdır.

Bu gün Azərbaycanda sabitlik hökm sürür, inkişaf prosesi uğurla davam etdirilir. Bu da dövlətimizin və xalqımızın böyük nailiyyətidir. Əlbəttə ki, Zirvə görüşü bilavasitə burada iştirak edən dövlət və hökumət başçılarının qarşılıqlı əməkdaşlığının, milli maraqlarının uyğunluğunun həqiqətə çevrildiyi bir məkandır. Təşkil olunan iqtisadi forum ölkələr arasındakı biznes əlaqələrinin inkişafına töhfə verəcək. Bu forumda bir daha səsləndirildi ki, ölkələrin milli maraqlarına



söykənən bütün amillər hər bir dövlət tərəfindən müdafiə olunmalı və qorunmalıdır. Sözsüz ki, Azərbaycan iqtisadiyyatının davamlı və dayanıqlı olması bir sıra mühüm tədbirlərin həyata keçirilməsində vacib rol oynayır. Bu, forumda da öz aydın ifadəsini tapıb".

"Prezident İlham Əliyev göstərdi ki, istər torpaqlarımızın işğal altında olduğu dövrdə, istərsə də 44 günlük müharibədə qələbədən sonra Azərbaycan öz iqtisadiyyatının inkişafına, regionların bərpasına, sülhün təmin olunmasına yeni töhfələr vermək əzmindədir. Azərbaycanın güclü olması üçün onun iqtisadiyyatının inkişafı çox vacibdir. Ölkə rəhbəri forumda çıxışı zamanı müəyyən faktları da diqqətə çatdırdı. Bu bir həqiqətdir ki, son 20 ildə Azərbaycan iqtisadiyyatının 4, dövlət büdcəsinin 30, valyuta ehtiyatlarının 37 dəfədən çox artması ölkənin sosial-iqtisadi həyatını yaxşılaşdırmaqla bərabər, insanların rifah halına da öz müsbət təsirini göstərib. Bu da Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə səbəb olub. Bu gün dünya ölkələri Azərbaycanı mübariz, qalib, həm də ictimai-siyasi sabitliyin hökm sürdüyü bir dövlət kimi tanıyırlar. Sözsüz ki, bugünkü gündə Azərbaycanın yeni inkişafına yollar açılması, onun iqtisadi cəhətdən möhkəmlənməsindən və yüksəlişindən keçir. Forumda nəqliyyat infrastrukturunun yaradılmasına da böyük önəm verilib. Çünki Mərkəzi Asiya ölkələrinin inkişafı Azərbaycandan keçən nəqliyyat yollarının səmərəli işləməsindən asılıdır.

Prezident İlham Əliyev öz çıxışında bunu xatırladaraq bildirmişdi ki, son illər Azərbaycan öz nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub. Bu, böyük bir həqiqətdir. Bu gün Azərbaycanda nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına yönəldilən diqqət nəinki dövlətin başlıca vəzifəsi, eləcə də dünya ölkələrinin diqqət mərkəzindədir",- deyə o əlavə edib.

***Ləman Sərraf***



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# "Xristian klubu" Qarabağda qan axtarır...

Müharibə bitsə də, görünür, bir çox qüvvələr bu bölgədə sülh və inkişafa qənim kəsiliblər. Onlara yeni qan lazımdır. Onların maraqları üçün axıdılacaq qanlı oyunları işə salırlar... Artıq Qarabağ üzərində yeni qanlı oyunlar üçün düyməyə basılıb belə. Bu düşmənçilik işinə rəhbərliyi Fransa üzərinə götürüb. Açıq-aşkar Qərbdəki qüvvələr bölgədə sülh sazişinin imzalanmasına qarşıdırlar. Hətta bunu ən həyasız şəkildə bəyan etməkdən də çəkinmirlər. Əgər əvvəllər qərb dairələri bunu dolayısı ilə ifadə edirdilərsə, artıq bu murdar niyyətlərini gizlətmirlər də heç.

Xüsusilə, Afrikadan və başqa keçmiş koloniyalardan iti qovan kimi qovulan rəsmi Paris, indi də Nikol Paşinyana "böyük bacılıq" adı ilə Qafqaza soxulmağa, bu bölgədə daimi təxribat oyunçusuna çevrilməyə çalışır. Prezidentliyi dövründə Fransanı itdən də hörmətsiz duruma gətirən, bütün beynəlxalq tədbirlərdə Vladimir Putindən tutmuş ta Afrikadakı qəbilə başçılarına qədər hər kəsdən təhqir və azar eşidən Emmanuel Makron, bu uğursuzluqlarını "kompensasiya" etmək üçün Qafqazda yeni qanlı ssenarini işə salmağa başlayıb. Ermənistana silah-sursat daşınır, qərb siyasi institutlarındakı fransız rəsmilər "zavallı erməni qaçqınlara" dəstək üçün "nə lazımsa edəcəklərini" uca səslə qışqırmağa başlayıblar. E.Makronun bu Azərbaycan düşmənçiliyinə artıq Avropa İttifaqının bütün rəsmiləri də qatılıblar. Xankəndidən deyə-gülə İrəvana üz tutan yerli erməniləri bu E.Makronun israrı ilə "qaçqın statusuna" mindirən, N.Paşinyana 100 milyon dollardan çox vəsait ayıran Avropa İttifaqı qanlı ssenari üçün hazır dayanıb durub. Görün, Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozef Borrel Azərbaycana qarşı hansı açıqlamalarla çıxış edir.

C.Borrel Aİ Ermənistanın ərazi bütövlüyü və suverenliyinin pozulmasını qəbuledilməz olduğunu və bunun "ağır nəticələrə" səbəb olacağı haqda Azərbaycana xəbərdarlıq edib. "Biz Ermənistanda həm daxili, həm də xarici sabitliyi pozmağa yönəlmiş istənilən cəhdə qarşı ayıq olmalıyıq. Azərbaycana mesajımız aydındır: Ermənistanın suverenliyi və ərazi bütövlüyünün pozulmasını qəbul etməyəcəyik və bu, "ağır nəticələrə" gətirib çıxaracaq". Görün bu qoca Borel daha sonra nə deyir: "Avropa Sülf Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsini nəzərdən keçirirlər".

Bax, məsələnin düyün nöqtəsi buradadır. Sülh Fondu Ermənistana müharibə üçün silah yardımı edəcək. Sülh Fondu və qanlı müharibə üçün silah yardımı!!! Avropalı siyasətçilərin illərdir pərdələməyə çalışdığı əsl yırtıcı sima xoxan kimi ortadadır. Bu qoca C.Borrel gör qanlı planlarını necə də diletant şəkildə "pərdələyir". Azərbaycan nə zaman Ermənistanın ərazisində hərbi əməliyyatlar keçirəcəyini bəyan edib ki? Rəsmi Bakının sülh çağırışlarına, xüsusilə, iki ölkə arasındakı sülh müqaviləsinin imzalanması üçün elə Avropa İttifaqının vasitəçiliyi ilə aparılan danışıqlara gözlərini bağlamaq təkcə C.Borrelə məxsus "istedad" deyil. Bunların hamısı belədir, işlərinə gəlməyəndə "kar və kor" olurlar. Fransanın Qafqazdakı qanlı planlarına Avropa İttifaqının da belə aktiv şəkildə və həyasızcasına qoşulması, həm də Rusiyanın Qafqazdan sıxışdırılması planları ilə bağlıdır. Ukraynadakı qanlı ssenarini Qafqazda təkrarlamaq üçün qollarını çırmalayıblar.

Var gücləri ilə regionda kimin qanının tökülməsindən asılı olmayaraq xaos və müharibələr yaratmağa çalışırlar. Təki hər şey Rusiyanın nəzarətindən çıxsın və xaos olsun. Daha çox "Xristian Klubu" kimi ad çıxaran Aİ zaman-zaman min təəssüf ki, ədalətli və obyektiv olmaq əvəzinə, hətta xristian maraqları kontekstinə qədər aşağı yuvarlana bilir. 1967-ci ildən Türkiyəni Avropa Birliyinin qapısında gözlədən bu mürtəce avropalı siyasətçilər üçün heç bir dəyər yoxdur. "Mədəni və humanist" Avropa ölümcül yırtıcı kimi ancaq öz maraqları üçün, başqalarını talayıb, məhv edib özünü yedirmək üçün çalışır. Bu qərbdəkilər tarix boyu hansı ölkəyə demokratiya və ədalət gətiriblər ki? Şərqdəki "ərəb baharı" kimi qanlı çevrilişlərdən sonra İraqda, Misirdə, Liviyada, Suriyada, daha haralarda xaos və qanlı toqquşmalar yaradıb insanları evsiz-eşiksiz qoymadılar ki?

Bunların "ərəb baharı"ından sonra milyonlarla insan evlərindən qaçaq düşüb Avropa sərhədlərinə axın etmədilərmi, həmin qaçqın insanların başına zəncir keçirib Avropa paytaxtlarında bir tikə çörəklə alçaldıb qul kimi münasibət göstərmədilərmi? Bax, bu, həmin "mədəni Avropadır". Onların elan etdikləri sosial rifah, insanın insan kimi yaşamaq cəmiyyətləri yalnız özləri üçündür, başqalarına qəti olmaz! Bunların tezisi belədir: Avropada mədəni həyat, sosial gül-çiçək, başqaları üçün isə ancaq qan-qada, qaçqınlıq, aclıq və səfalət. Beləcə Avropa İttifaqı –"Xristian Klubu" Qafqazda Fransa ilə əl-ələ verib qan axtarışına çıxıb. Əcdadlarının etdiklərini təkrarlayırlar. Beləcə, artıq hamıya aydındır ki, Qərb üçün yalnız yırtıcı maraqlar var, başqa heç nə!

# Zəfərdən ötən üç il



## Prezident İlham Əliyev: "Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik"



***"Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar.***



2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə çıxışında bildirib.

Əlbəttə ki, bu gün dünya miqyasında söz sahibi olan Azərbaycanın iqtisadi gücü, qüdrəti 44 günlük Vətən müharibəsində özünü göstərdi. Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoydu. 44 günlük Vətən müharibəsinin Ermənistanın məğlubiyyəti və 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamasına məcbur edilməsi ilə nəticələndi. Azərbaycan BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin icrasını təmin etmiş oldu. "2020-ci ilin noyabr ayında Azərbaycan xalqı öz tarixinin ən parlaq Qələbəsinə imza atdı. Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistanı məğlub etdi və işğala son qoydu. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il kağız üzərində qalmış dörd qətnaməsinin icrasını özümüz təmin etdik" – deyə Cənab Prezident bildirib.

### "CƏMİ BIR GÜN ƏRZİNDƏ 1992-Cİ İLDƏ XALQIMIZA QARŞI SOYQIRIMININ TÖRƏDİLDİYİ XOCALI ŞƏHƏRİ DƏ DAXİL OLMAQLA, BÜTÜN ƏRAZİLƏRİMİZ ÜZƏRİNDƏ SUVERENLİYİMİZİ TAM BƏRPA ETDİK"

Tarixin dönəmlərindən bizə məlumdur ki, ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. Azərbaycanın mədəni irs nümunələrini erməni mülkiyyəti adı ilə tanıtmağa çalışaraq əqli mülkiyyətimizin terrorçusuna çevriliblər. Artıq bu günün diktəsi tamamilə başqadır. Azərbaycan dünyaya çıxmaq imkanına malikdir. Beynəlxalq qurumlar, təşkilatlar, ümumilikdə dünya dövlətləri Azərbaycan ərazisini tanıyır, ona hörmətlə yanaşırlar. Azərbaycan 90-cı illərin əvvəllərinin dövrü ilə müqayisəyə gələ bilməz. Ölkəmizin 44 günlük Vətən müharibəsində Zəfər qazanması bunun bir daha sübutudur.

Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa etdikdən sonra Ermənistan bundan sonra da öz üzərinə düşən öhdəliklərini yerinə yetirmədi. "Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin 15 minə yaxın hərbi kontingenti qalmaqda idi. Onlar tərəfindən törədilmiş hərbi təxribatlar nəticəsində hərbçilərimiz həlak olmuşlar" – deyən dövlətimizin başçısı bildirib ki, buna cavab olaraq və "boz zona"ya son qoyulması məqsədilə bu il sentyabrın 19-20-də biz Qarabağda antiterror tədbirlərinin keçirdik: "Cəmi bir gün ərzində 1992-ci ildə xalqımıza qarşı soyqırımının törədildiyi Xocalı şəhəri də daxil olmaqla, bütün ərazilərimiz üzərində suverenliyimizi tam bərpa etdik və Azərbaycan ərazisində təcavüzkar separatizmə son qoyduq".

Bildiyimiz kimi, sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gündən də az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji mövqeyləri ələ keçirərək, qısa müddət ərzində əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə xitam verildi. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaqdır. Noyabrın 8-də Şuşa əməliyyatından sonra düşmən ordusunun beli qırıldı və bir gün sonra kapitulyasiya aktına imza atdı. Dünya tarixinə ədaləti bərpa etməyə qadir ölkə kimi daxil olan Azərbaycan Xankəndidə keçirilən parad ilə gücünü, qüdrətini dünyaya növbəti dəfə nümayiş etdirdi.

### BÖYÜK QAYDIŞI İLƏ DÜNYAYA SƏS SALAN AZƏRBAYCAN

30 ilə yaxın işğal altında olan ərazilərimiz viran qoyulub. Dini-mədəni abidələrimiz tamamilə dağıdılıb. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. erməni vandallığı ilə üz-üzə qalmışdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir. Əlbəttə ki, Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarına ziddir. Artıq Azərbaycanın Zəfər tarixindən üç il ötür. İşğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Tarixi abidələrimiz təmir və bərpa olunur.

Azərbaycan Böyük Qaydışı ilə dünyaya səs salıb. Qədim mədəniyyət paytaxtımız Şuşada "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri keçirildi. Cəmi 8 ayda Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verildi, Şuşada dahi Azərbaycan şairi və ictimai-xadimi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı oldu. Ərazilərdə bərpa-quruculuq işləri sürətlə həyata keçirilir. Yol, nəqliyyat, enerji infrastrukturlarının geniş miqyasda həyata keçirilməsi, ermənilər tərəfindən dağıdılmış məscidlərin, müxtəlif icmalara məxsus dini abidələrin bərpa və təmiri işğalçı Ermənistana zərbədir. Təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək və s. proritet məsələ olaraq qarşıya qoyulub və əhalinin doğma torpaqlarına geri qayıdışının yüksək səviyyədə təminatı istiqamətində davamlı layihələr həyata keçirilir. Qarşıya qoyulan Strateji prioritetlər sırasında "universallıq", "inteqrasiyalı yanaşma" və "heç kimin geridə qalmaması" kimi prinsiplərə əsaslanan Dayanıqlı İnkişaf Məqsədlərinə və onların müvafiq hədəflərinə uyğunlaşdırılması da yer alıb. Bu uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi əzmi, qətiyyəti ilə reallaşır.

***Zümrüd BAYRAMOVA***

***Fələstin məsələsi sözün əsl mənasında beynəlxalq gündəmə düşüb. Oktyabrın 7-dən sonra birdən hamının yadına düşdü ki, BMT-nin Fələstində iki dövlət yaratmaq qərarlarına zidd olaraq, yalnız bir yəhudi dövləti var. Hələ 1947-ci ildə BMT Baş Assambleyası Fələstini iki dövlətə - yəhudi və ərəb dövlətlərinə bölmək qərarına gəldi. Qüdsə beynəlxalq şəhər statusu verdi ki, orada münaqişə olmasın. 1948-ci il mayın 14-də İsrailin Müstəqillik Bəyannaməsi imzalandı və dünya xəritəsində yəhudi dövləti peyda oldu.***



# Fələstinin gələcəyi varmı?

## *İsrail dayanmasa, Qəzza bütün bölgəni yandıra bilər*

Ertəsi gün birinci ərəb-İsrail müharibəsi başladı. Bunun nəticəsi fələstinlilərin kütləvi köçü (Nəkbə) və İsrail ərazisinin genişləndirilməsi oldu. Həmin dövrdə 1,4 milyon fələstinlinin 800 mini öz torpaqlarını tərk etdi. 1967-ci il müharibəsi nəticəsində İsrailin ərazisi daha da artdı. 1964-cü ildə Ərəb Dövlətləri Liqasının qərarı ilə Fələstin Azadlıq Təşkilatı (FAT) yarandı. 1988-ci ilin noyabrında FAT-ın Milli Şurası müstəqil Fələstin dövlətini elan etdi, lakin bu, heç bir əraziyə nəzarət etmədiyi üçün sırf simvolik bir addım idi. 1990-cı illərin əvvəllərində İsrail Fələstin Muxtariyyətinə (FM) yəhudi dövlətinin nəzarətində olan bəzi əraziləri idarə etməyə icazə verdi. FAT və İsrail Oslo 1 (Fələstinin özünüidarəsi üçün müvəqqəti razılaşmalar) və Oslo 2 (Fələstinlilərlə İsrail Dövləti arasında İordan çayının qərb sahili və Qəzza zolağında müvəqqəti sazişlər) bağladılar. Ancaq bu, sülh gətirmədi, çünki Fələstin Muxtariyyətinin heç nəyə nəzarəti yox idi. Fələstinlilər arasında vətəndaş müharibəsindən sonra Qəzza zolağı 2007-ci ildən Müsəlman Qardaşlarının ideologiyasını qəbul edən HƏMAS (Hərəkat əl-Mukauta əl-İslamiyyə) islamçı hərəkatının nəzarətinə keçdi. İordan çayının qərb sahili və Şərqi Qüds isə İsrailin nəzarətində qaldı.







HƏMAS oktyabrın 7-də "Əl-Əqsa Daşqını" əməliyyatına başlamasını rəsmi olaraq İslamın üçüncü müqəddəs məkanı olan Qüdsdəki Məscidül-Əqsanın İsrail tərəfindən təhqir edilməsi və İordan çayının qərb sahilində yəhudi məskunlaşanların zorakılığının artması kimi əsaslandırıb. Bu əməliyyatın planlaşdırılması və hazırlanması ilə bağlı çox şey məlum deyil. Amma istənilən sirr zamanla üzə çıxır. Artıq bəzi nəticələr çıxarmaq olar. İsrail tarixinin ən sağçı hökuməti sayılan Benyamin Netanyahunun hazırkı gərginliyə səbəb olması barədə geniş müzakirələr aparılır. Hətta Netanyahu ilə birgə hakim koalisiyadakı tərəfdarı, maliyyə naziri Bezalel Smotriç və sağçı Yəhudi Gücü Partiyasının lideri, milli təhlükəsizlik naziri İtamar Ben-Qvir ölkədə baş verənlərə görə məsuliyyət daşıdıqları barədə fikirlər dolaşmaqdadır. İordan çayının qərb sahili və Əl-Əqsa məscidində baş verən təxribatların əsl səbəbləri və günahkarları üzə çıxarılarsa, indi Qəzzada baş verənlərin günahkarlarının da kim olduğu bəlli olar. Qərbdə də dəfələrlə bəyan ediblər ki, İsrail Fələstinin müstəqil dövlət yaratmaq ambisiyalarını boğmalıdır. 2023-cü ilin yazından etibarən bölgədə baş qaldıran zorakılıqlar etnik təmizləmə həddinə qalxdı, on minlərlə sakin İordan çayının qərb sahilindəki evlərindən çıxarıldı. HƏMAS isə bundan istifadə edərək təşkilatı Fələstin Azadlıq Hərəkatının əsas hərəkətverici qüvvəsi elan etmək qərarına gəldi, nəinki İsraildən qisas almağa, hətta onu məhv etməyə, alçaltmağa, bununla da özünün ərəb dünyasında, xüsusən də Fələstin diasporunda nüfuzunu gücləndirməyə çalışdı. Eyni zamanda, onun rəqibi olan FƏTH kimi tanınan Fələstinin Milli Azadlıq Hərəkatını, eləcə də prezident Mahmud Abbası və Fələstin Muxtariyyətini xoşagəlməz məqamda ifşa etmək qərarına gəldi. HƏMAS həm də İordan çayının qərb sahilində və Şərqi Qüdsdə dəstəklənəcəyinə və Livan Hizbullah-ının ikinci anti-İsrail cəbhəsi açacağına ümid edirdi. HƏMAS-ın mühüm məqsədi də Səudiyyə Ərəbistanı ilə İsrail arasında münasibətlərin normallaşdırılması üzrə danışıqları pozmaq oldu. HƏMAS-ın siyasi lideri İsmayıl Haniyə həmişə açıq rəqib olub. Həqiqətən də bu razılaşmaların köməyi ilə İsrailin Fələstin Muxtariyyətinə güzəştlərini minimuma endirməyə və iki dövlət arasında razılaşmanın həyata keçirilməsini gündəmdən çıxarmağa nail oldu.

Hadisələrin inkişafı İsrailin güc strukturları arasında koordinasiyanın zəifliyini də üzə çıxardı. 7 oktyabr faciəsində kimin günahkar olması ilə bağlı Nazirlər Kabineti ilə hərbçilər arasında münasibətlər hələ də aydınlaşdırılır. Siyasətçilərin İsrailin imicinə mənfi təsir göstərən bəyanatları ölkənin baş prokuroru Qali Baharav-Miaranı dinləmələr keçirməyə məcbur edib. O, rəsmiləri İsrailin "düşmənləri" tərəfindən "müharibə cinayəti" kimi şərh edilən "tələsik bəyanatlara" qarşı xəbərdarlıq edib. Söhbət kənd təsərrüfatı naziri, Təhlükəsizlik Kabinetinin üzvü Avi Dixterdən (o, Şin Bet ümumi təhlükəsizlik xidmətinin direktoru, daxili təhlükəsizlik naziri idi), irs naziri Amichai Eliyahu və Knesset sədrinin müavini Nissima Vatoridən gedir. Baş prokurorun sözlərinə görə, bu qəbildən olan bəyanatlar beynəlxalq hüquqa ziddir. Netanyahu onu dəstəkləməyə məcbur oldu. Baş nazir kabinet üzvlərinə "bir gün sonra peşman olacaqları" "susmağı və danışmamağı" öyrənməyi tövsiyə etdi.

Hərbçilər arasında itkilər artdıqca və Qəzzada əməliyyat uzandıqca, İsrail hökumət dairələrində ziddiyyətlər və Netanyahunun siyasətindən ictimai narazılıq artacaq. Rəsmi məlumatlara görə, oktyabrın 7-dən indiyədək İsrail Müdafiə Qüvvələrinin (IDF) 391 əsgəri həlak olub. Faktiki itkilərin nə olduğu məlum deyil. İsrail hakimiyyəti üçün aktual məsələ girovların azad edilməsidir. Onların əksəriyyəti HƏMAS tərəfindən sektorun cənubuna aparılıb. Onları azad etmək üçün ya bütün Qəzza zolağını işğal etməlisən, ya da HƏMAS ilə danışıqlar aparmalısan. Netanyahu uzun müddət müqavimət göstərdi, çünki bu, onun üçün Fələstin siyasətinin uğursuzluğu deməkdir. İsrail ictimaiyyətinin təzyiqi ilə o, HƏMAS ilə mübadilə razılaşmasına razılıq verməyə məcbur olub. Müqavilələr İsrail həbsxanalarından 150 yeniyetmə və qadının azad edilməsi müqabilində anklavda saxlanılan 50 uşaq, yeniyetmə və qadının azad edilməsini nəzərdə tuturdu. Noyabrın 24-ü səhər saatlarında atəşkəs qüvvəyə minib. HƏMAS bunu qələbə kimi qiymətləndirib.

Müxalifət lideri Yair Lapid Netanyahunu baş nazir postundan uzaqlaşdırmağa çağırıb. Onun fikrincə, indiki hökumət dövründə ölkə "daha pis vəziyyətə düşüb". Lapid əmindir ki, Netanyahu artıq Nazirlər Kabinetinə rəhbərlik edə bilməz və ölkənin əhəmiyyətli dəyişikliklərə ehtiyacı var. Keçmiş hərbçilər və müxalif İsrail siyasətçiləri arasında Qəzzadakı xəstəxanalar ətrafındakı vəziyyətin beynəlxalq ictimaiyyət tərəfindən İsrailə qarşı istifadə oluna biləcəyi ilə bağlı qorxular var. Sektordakı 51 tibb müəssisəsindən yalnız 9-u tibbi yardım göstərə bilir. Həmçinin belə bir fikir var ki, girovların həyatını xilas etmək üçün "hamı üçün" prinsipi ilə mübadilə aparılmalı idi. Əgər azad edilmiş fələstinlilər HƏMAS sıralarına qoşulsalar, o zaman ÇAXAL döyüş meydanında keçmiş əsirlərin hər biri ilə üzüzə gəlmək imkanı əldə edəcək.

Əgər ABŞ Fələstin-İsrail münaqişəsinin həllində konstruktiv mövqe tutsaydı, indi Fələstində və İsraildə silsilə dəfn mərasimləri olmazdı. İsrail hökumətinin keçmiş müşaviri Daniel Levinin fikrincə, Amerikanın baş verənlərə loyal münasibəti bütün Yaxın Şərqdə sabitliyi pozacaq. Ərəb dünyası müharibə istəmir. Üstəlik, bir çox ərəb ölkələri HƏMAS-ı ideologiyasına görə dəstəkləmir və Fars körfəzinin monarxiyaları onların rifahını məhv etmək istəmir. Şübhəsiz ki, eskalasiya riski var. ABŞ bundan istifadə edərək Livan Hizbullahını və İranı müharibəyə sürükləməyə çalışır. Hizbullah və İran liderləri başa düşürlər ki, əgər bu baş verərsə, o zaman onlar İsrail ordusunun Qəzzada törətdikləri haqqında danışmağı dayandıracaq və bütün Qərb təbliğat maşını onların üzərinə hücuma keçəcək. Hələlik hər şey Hizbullah və İsrail ordusunun qarşılıqlı atəşi, Yəmən husilərinin Eylatda raket və pilotsuz təyyarələr atması, eləcə də İraq müqavimət qüvvələrinin Suriya və İraqın şimal-şərqindəki Amerika hərbi bazalarına hücumları ilə məhdudlaşır. Bütün hücumlar qeyri-dövlət birləşmələri tərəfindən həyata keçirilir, lakin ABŞ hərbi armadası onlara qarşı heç nə edə bilmir.

Qəzzada dinc əhali arasında itkilərin artması dünyada, xüsusən də müsəlman cəmiyyətində Qərbin siyasətindən artan narazılıqlara səbəb olub. İsrailin anklavda hərbi əməliyyatına razılıq verməsi "Qərbin İslam dünyasına qarşı" sivilizasiya müharibəsi kimi qiymətləndirilir. Əgər siyasi dairələr və amerikalılar bunu başa düşməsələr, o zaman İsrail ordusunun Qəzzada əldə etdiyi qələbə pirrikə çevrilə bilər. Küveyt Universitetinin professoru Bədr əl-Saif qeyd etdiyi kimi, bu müharibə bizə xatırlatdı ki, regionda sülh yalnız münaqişə həll edildikdən və Fələstin məsələsi həll edildikdən sonra mümkündür. İsrailin heç bir diplomatik çağırışı dünya ictimaiyyətinin Fələstin torpağında "iki xalq üçün iki dövlət" yaratmaq qərarını yaddaşlardan silə bilməz.

**V.SALAH**

# Media orqanının maliyyə qaynağı şəffaf deyilsə...

***Məlumdur ki, noyabrın 21-də "Abzas Media" saytının direktoru Ülvi Həsənli və baş redaktoru Sevinc Abbasova (Vaqifqızı) barədə məhkəmə qərar çıxarıb. Qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə maddəsi ilə ittiham olunan birinci şəxs barəsində 4, ikinci şəxs 3 ay 29 gün müddətinə həbs qətimkan tədbirinə məruz qalıb. Noyabrın 23-də bu iş üzrə "Abzas Media" saytının direktor müavini Məhəmməd Kekalov da həbs edilib. Xətai Rayon Məhkəməsinin qərarı ilə M.Kekalov haqda 3 ay 27 gün müddətinə həbs qətimkan tədbiri seçilib. O da iş yoldaşları kimi qaçaqmalçılıqda ittiham olunur. SİA mövzu ilə bağlı media kapitanlarının fikirlərini öyrənib.***



**Mətbuat Şurasının sədri Rəşad Məcid:** "Prosesləri izləyirik. İndilikdə konkret nəsə deyə bilmərik. İstintaqın nəticələri məlum olandan sonra münasibətimizi bildirəcəyik. Ümumi desək, arzumuz budur ki, bütün media subyektlərinin maliyyə mənbələri şəffaf olsun".

**Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrət:** "Bu məsələlər ilə bağlı istintaq gedir. Mütləq istintaqın nəticələrini gözləməliyik. Niyə Azərbaycan Respublikasının qanunlarına zidd olan media qurumu xarici maliyyə hesabına fəaliyyət göstərir? Necə olur ki, bu media qurumu Azərbaycanın problemləri haqqında yazmaqdan imtina edir, yalnız Azərbaycanda neqativ axtarır? Niyə anti-Azərbaycan ovqatlı beynəlxalq təşkilatlar bu qurumun rəhbərliyindəki şəxsləri belə həvəslə maliyyələşdirirlər? Eyni zamanda Fransa, Almaniya səfirliyi kimi diplomatik təmsilçiliklər və bu qurumun rəhbərliyindəki şəxsləri rəhbərləşdirməyə belə həvəs göstərirlər? Bu sualların hamısı açıqdır.

Mən düşünürəm ki, bütün istintaq altında olan şəxslər bu sualların cavabını verəcəklər. Ümumiyyətlə, bizim qanunlarımıza görə, xarici maliyyə hesabına medianın bu cür təşkili yolverilməzdir. Xarici ölkələrdə, donorlarda, ümumiyyətlə xarici təşkilatlardan asılı bir medianın mövcudluğu ölkənin daxili üçün ciddi bir problemdir. Azərbaycan dövləti gərəkli addımları atmaqda düzgün hərəkət edir. Biz kiminsə həbs edilməsini arzu etməzdik, insanların özləri düşdüyü quyuya görə onlara biz də kömək göstərə bilmərik".

**"Editor.az" saytının baş redaktoru Fərid Şahbazlı:** "Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərib, başqa təşkilatlarla qeyri-qanuni əməkdaşlıq etmək



Azərbaycan qanunvericiliyində qadağandır, etik deyil. Azərbaycan hüquqi bir dövlətdir. Bu fəaliyyətə söz və azadlığın prizmasından yox, qanun və xidmətlərin prizmasından baxmaq daha məqsədəuyğundur.

Bütün Azərbaycandakı bütün media






SORĞU

qurumları öz fəaliyyətlərini "Media haqqında qanun"un tələblərinə uyğun qurmalıdırlar. Əks halda həyata keçirilən bütün qeyri-qanuni fəaliyyətlərə qanun çərçivəsində qiymət veriləcək. Azərbaycanda xarici maliyyə hesabına fəaliyyət göstərən qeyri-hökümət təşkilatları və media qurumları olub. Onların məqsədi təxribatçı, pozucu informasiya yaymaqdır".

**Media eksperti Yadigar Məmmədli:** "Biz hər zaman onun şahidi oluruq ki, Azərbaycan həm ölkə səviyyəsində milli məsələlərdə daha çox da regionda mühüm əhəmiyyət kəsb edən nailiyyətlər əldə edəndə, addımlar atanda Azərbaycana qarşı hazırlanmış planlar həyata keçirilir. Bu düşünülmüş planlarda Azərbaycanı gözdən salma və böhtan atma kimi elementlər də olur. Çox təəssüf ki, bu proqramlarda ölkəmizdə olan daha çox qeyri-hökümət təşkilatları, mediaya aid olan qurumlar bilərək və ya bilməyərək bu planların içində iştirak edirlər. Bu da növbəti hadisələrdən biridir. Bu Azərbaycana qarşı qara yaxma kompanyası aparılır. Ona görə ki, Azərbaycan çox böyük nailiyyətlərə imza atıbdır. Azərbaycan 30 ildən artıq işğalda olan əraziləri işğaldan azad etmişdir. Regiona sülh gətirmək istiyir. Ermənistanla ümumiyyətlə qonşu dövlətlərlə dinc, əmin-amanlıq şəraitində yaşamaq təklif edir amma bunun əksinə olaraq dünya gücləri Ermənistan və onun arxasında duran onu bu cinayətə bu fəlakətə sürükləyən güc mərkəzləri tamam başqa şey fikirləşirlər. Ona görə də bu dövrdə Azərbaycanın məhz mediadakı problemlərlə bağlı ciddi bir kompaniya aparılır.

Bu məsələlərdə biz də bu hadisənin üzərinə getməliyik. "Abzas" media və bu məsələlərin həlli ilə bağlı Azərbaycanda olan həm Fransa, həm də Almaniya səfirliklərinə müraciət etmək və onların mövqelərini almaq lazımdır. Ancaq bu hal yenə də bitməyəcək. Onların artıq bununla bağlı qəbul etdikləri proqramlar var. Sadəcə biz Azərbaycan mediası, Azərbaycan cəmiyyəti hər zaman olduğu kimi bu məsələlərlə bağlı ayıqlıq göstərməliyik, bu məsələlərə açıq soyuq başla yanaşmalıyıq və məsələlərdə öz mövqeyimizi müdafiə etməliyik və məsələnin üzərinə getməliyik".

***Ayşən***

# "Ermənistan ABŞ və Fransanın boyunduruğunda qalmaqla addımlayacaqsa,..."

***"Noyabrın 30-da Azərbaycan-Ermənistan sərhədində (şərti) delimitasiya üzrə komissiya formatında növbəti iclasın keçirilməsi planlaşdırılıb. Bu özlüyündə mühüm və pozitiv addımdır. Ancaq biz ilk növbədə onu nəzərə almalıyıq ki, Ermənistan bağlı olduğu Qərb və Avropa dairələrinin təzyiqi, təsiri ilə sülhdən, delimitasiya və demarkasiyadan 3 ildən çoxdur müxtəlif bəhanələrlə yayınır. Yəni vədlər verirlər, görüş keçirilir, amma heç bir praktiki addım atmırlar. Azərbaycan sülhə də, delimitasiyaya da çoxdan hazırdır. Bunu ləngidən yalnız Ermənistan və onun havadarları olub". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Elşad Məmmədli deyib.***





Onun sözlərinə görə, Ermənistan Xarici İşlər Nazirliyi planlaşdırılan görüşlə bağlı məlumatında danışıqları bərpa etməyə hazır olduğunu bəyan edib, amma onların konkret nəticədə maraqlı olmalarını səmimi qəbul etmək hələlik mümkün deyil: "Ən azı təcrübə bunu deməyə əsas verir. Xatırladaq ki, sərhəddə görüş təklifi məhz Azərbaycanındır. Bu ilin aprelində Azərbaycan-Ermənistan sərhədinin Laçın rayonu istiqamətində (Sünik rayonunun Tex-Kornidzor hissəsi) iki ölkənin nümayəndələri arasında görüş keçirilmişdi".

Elşad Məmmədli sözlərinə belə davam edib: "Qarabağ işğal altında olan dönəmdə də sərhəddə görüş baş tutmuşdu. 1999-cu il oktyabrın 11-də Sədərək rayonunda Ümummilli lider Heydər Əliyevlə Robert Köçəryan arasında görüş olmuşdu. Bu, tərəflər arasında sərhəddə baş tutan ilk görüş idi. Bu görüşdə Ermənistan Silahlı Qüvvələrinin işğal etdiyi 7 rayondan qeyd-şərtsiz çıxmasına dair müəyyən razılaşmalar əldə olunduğu qeyd edilirdi. Ancaq nə baş verdi? Görüşdən 2 həftə sonra 1999-cu il 27 oktyabrda Ermənistan parlamentində terror törədildi, məqsəd də yalnız bu razılaşmanı pozmaq idi. 2023-cü noyabrın 30-da sərhəddə görüş baş tutandan sonra Ermənistanın hansı davranışı sərgiləyəcəyini porqnozlaşdırmaq çətindir. Təbii, dalana dirənmiş Ermənistan üçün ikitərəfli görüşlərdə sülh və delimitasiyaya sürətlə başlamaq ən uyğun variantdır. İrəvanın başqa yolu yoxdur və təcrübə də sübut edib ki, vasitəçilərlə bu iş alınmır.

Yeri gəlmişkən, Azərbaycan Prezidentinin müşaviri Hikmət Hacıyev "Reuters" agentliyinə açıqlamasında bəyan edib ki, Bakı Ermənistanla ikitərəfli sülh danışıqlarının aparılmasını istəyir və Qərbin vasitəçiliyi olmadan tez bir zamanda razılığa gələ biləcəklərinə inanır. Sitat: "Əgər xoş niyyət olarsa, sülh sazişinin təməl prinsipləri qısa müddətdə işlənə bilər".

Qərbin iştirakı ilə bağlı suala o bunları əlavə edib: "Bizə Vaşinqtonda, Parisdə və ya Brüsseldə deyil, regionumuzda sülh lazımdır". Bəli, Azərbaycan səmimidir və buna görə də yalnız nəticəsi ola biləcək – sərhəddə, vasitəçisiz görüşdə maraqlıdır. Əgər Ermənistan özündə cəsarət tapıb, iradə ortaya qoyub bu görüşdə razılıqlara gələrsə və həmin razılıqlara əməl edərsə, hətta ilin sonuna qədər də sülhə dair bir saziş bağlamaq, delimitasiya üzrə prosesi məntiqi yekuna aparmaq olar.

Ancaq Ermənistan ABŞ və Fransanın boyunduruğunda qalmaqla addımlayacaqsa, o dairələr sülhə də, delimtasiyaya da imkan verməməyə çalışacaqlar. Bu halda onların görüş razılığı yalnız imitasiya, görüntü yaratmaq ola bilər. Hər halda, biz cəmi bir həftə sonra proseslərin hansı yöndə inkişaf etdiyini aydın müşahidə edə biləcəyik. Əgər Paşinyan və onun hökuməti bu dəfə də praktiki addımlar atmasa, bu, onların özünü ifşa etməsi demək olacaq. Bu görüşün nəticələrinə uyğun olaraq da Azərbaycan daha sonrakı davranışlarını müəyyən edəcək".

***A. Vəli***

Təhlil

# Azərbaycan dünyanın güc mərkəzinə çevrilir




## *Yaradılmasının 25-ci ildönümündə SPECA-nın Zirvə görüşünün Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir*

***44** günlük Vətən Müharibəsi ilə 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsi Azərbaycanın gücünə güc qatdı, nufuzu daha da artırdı. Parlaq, hərbi, siyasi, diplomatik qələbədən sonra ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Cənubi Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi istiqamətində həyata keçirdiyi ardıcıl və mütərəqqi siyasəti və bu siyasətə beynəlxalq ictimaiyyətin yüksək diqqətinin və artan marağının olması Azərbyacnın dünya miqyasında qazandığı böyük nufuzunun göstəricisidir. Azərbaycanın regionda aparıcı dövlətə çevrilməsi, dünyada artan nüfuzunun onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb.*

Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. BMT, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, NATO, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu təşkilatlar Azərbaycanla əməkdaşlığı strateji prioritet kimi müəyyənləşdiriblər. Ölkəmizin beynəlxalq təşkilatlarda uğurlu fəaliyyəti, şəxsən Prezident İlham Əliyevə olan böyük inam və etimadın ifadəsi, dövlətimizin geostrateji prestijinin göstəricisidir. Bu inamın, etimadın nəticəsi olaraq beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ənənə xarakter daşıyır.

### Beynəlxalq konfranslara ev sahibliyi etməsi Azərbaycanın iqtisadi gücünün, inkişafının və multikultural dəyərlərinin hökm sürdüyü məkan olduğunu təsdiqləyir

Cari ilin noyab ayında İqtisadi Əməkdaşlıq Təşkilatının 27-ci Toplantısının Şuşada keçirilməsi, ardınca "Qadınların hüquqlarının inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması" mövzusunda beynəlxalq konfransa ev sahibliyi etməsi Azərbaycanın dünya miqyasında layiqli yer tutması iqtisadi gücünün, inkişafının, qonaqpərvərliyinin, multikultural dəyərlərinin, sabitlik adası kimi əminamanlığın hökm sürdüyü məkan olduğunu bir daha təsdiqləyir. Ötən həftə ölkəmizin paytaxtı növbəti dəfə diqqət mərkəzində oldu. Heydər Əliyev Mərkəzində BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı – SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşü keçirilib. Sammitdə Proqramın üzvü olan ölkələrin prezidentləri və digər yüksək səviyyəli rəsmiləri iştirak ediblər.Nəzrə almaq lazımdır ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramı 1998-ci ildə yaradılıb. Proqrama üzv dövlətlər Azərbaycan, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Əfqanıstandır. Proqramın məqsədi üzv dövlətlər arasında əməkdaşlığın inkişafı və dünya iqtisadiyyatına inteqrasiyanın dəstəklənməsidir.

Azərbaycan SPECA-ya 2002-ci ildə qoşulub və fəal üzvlərdəndir. SPECA İdarəetmə Şurasının və İqtisadi Forumunun 1-ci iclası Bakıda keçirilib və 2016-cı ildə Azərbaycan quruma sədrlik edib. Həmin ilin noyabr ayında Gəncə şəhərində İdarə Heyətinin 11-ci iclası və İqtisadi Forum keçirilib. Növbəti dəfə 2023-cü ildə Azərbaycan Respublikası SPECA-ya sədrliyi həyata keçirir. Azərbaycanın Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün BMT-nin Xüsusi Proqramı – SPECA həftəsinə ev sahibliyi etməsi, yaradılmasının 25-ci ildönümündə SPECA-nın Zirvə görüşünün Bakıda keçirilməsi mühüm əhəmiyyət kəsb edir. SPECA-nın Zirvə görüşündə Proqramın üzvü olan Özbəkistanın, Qazaxıstanın, Qırğızıstanın, Tacikistanın prezidentləri iştirak etdilər. Macarıstanın və Gürcüstanın Baş nazirləri, Körfəz Əməkdaşlıq Şurasının Baş katibi isə Prezident İlham Əliyevin dəvəti ilə Zirvə görüşünə fəxri qonaq qismində qatıldılar.

### "Son 25 ildə əsas çağırışlar arxada qalıb"

Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə çıxışı zamanı bildirdi ki, SPECA yaranada üzv ölkələr dövlət müstəqilliyinin ilk addımlarını atırdılar: "Qarşımızda bir çox problemlər, çağırışlar durmuşdu. Son 25 ildə əsas çağırışlar arxada qalıb, biz dövlət suverenliyimizi möhkəmləndirmiş, beynəlxalq aləmin dəyərli üzvlərinə çevrilmiş və iqtisadi cəhətdən sürətlə inkişaf etmişik". Prezident İlham Əliyev çıxışında onu da qeyd etdi ki, Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır: "Sentyabr ayında mən Düşənbədə keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının Zirvə görüşünə ilk dəfə fəxri qonaq kimi dəvət olunmuşam. Dəvətə görə bir daha təşəkkür edirəm. Hazırkı Zirvə görüşünü Düşənbə görüşünün məntiqi davamı kimi qiymətləndirirəm".

Prezident İlham Əliyev çıxışında onu da vurğuladı ki, Azərbaycanın güclü iqtisadiyyatı müstəqil xarici siyasət kursu həyata keçirməyə imkan yaradır. Son 20 ildə Azərbaycanın ümumi daxili məhsulu 4 dəfə artıb. Büdcə gəlirləri 30 dəfədən, xarici ticarət dövriyyəsi isə 10 dəfədən çox artıb. Azərbaycanın birbaşa xarici borcu hazırda ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. Valyuta ehtiyatları birbaşa xarici dövlət borcumuzu 10 dəfə üstələyir. Yoxsulluq səviyyəsi təxminən 50 faizdən 5,5 faizə düşüb. Ölkəmizdə əlverişli investisiya mühiti yaradılıb. Son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard ABŞ dollarından çox sərmayə qoyulub ki, bunun da 200 milyard ABŞ dollarına yaxını qeyri-enerji sektorunun payına düşür. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla ABŞ dolları həcmində sərmayə qoyub, Avrasiyanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib.



*Eldar İbrahimov*
*Milli Məclisin İntizam Komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü*

### "Zirvə görüşündə imzalanan Bakı Bəyannaməsində qarşıdakı dövrün hədəfləri və onlara nail olmağın yolları açıqlanıb"

Prezident İlham Əliyev çıxışında torpaqlarımızın erməni işğalından azad edilməsinin Azərbaycanın böyük hərbi, siyasi gücə malik dövlət olmasının göstərici olduğunu bildirdi: "Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik və ilkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpasının nəzərdə tutulduğunu qeyd edib. Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq». Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. Biz sıfırdan yeni şəhərlər və kəndlər inşa edirik. İlkin mərhələdə 100 yaşayış məntəqəsinin, o cümlədən 9 şəhər və 8 qəsəbənin bərpa edilməsi nəzərdə tutulur. Keçmiş məcburi köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz dədə-baba yurdlarına qayıdırlar. 2026-cı ilin sonuna qədər 140 min keçmiş məcburi köçkün öz doğma evlərinə qayıdacaq".

Diqqət çəkən məqam ondan ibarətdir ki, dost ölkələr Qarabğda bərpa, quruculuq işlərində yaxından iştirak edirlər. Zirvə görüşünə fəxri qonaq qismində qatılan Macarıstanın Baş naziri Viktor Orban ilə Prezident İlham Əliyev noyabrın 24-də işğaldan azad olunmuş Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasimini birgə həyata keçirdilər. Layihəni macar şirkətlərinin iştirakı ilə icra olunması mümühm böyük əhəmiyyətə malikdir. Özbəkistan, Qazaxıstan dövlətlərinin şirkətləri də işğaldan azad edilən ərazilərin bərpasında, quruculuq, abadlıq işlərinin həyata keçirilməsində yaxından iştirak edirlər.

Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə imzalanan Bakı Bəyannaməsində qarşıdakı dövrün hədəfləri və onlara nail olmağın yolları açıqlanıb. Yaradılmasının 25-ci ildönümündə SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşünün Bakıda keçirilməsi Azərbaycanın və şəxsən Prezident İlham Əliyevin qlobal müstəvidə qələbəsidir. Bütün bunlar isə bir daha onu göstərir ki, xalqımızı və dövlətimizi perespektivdə hələ möhtəşəm sosial, iqtisadi uğurlar, diplomatik qələbələr gözləyir.

# Heydər Əliyev: 35 il xalqının hüquq və azadlığı keşiyində




***Hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü vurğulayan Ümummilli Lider Heydər Əliyev ölkəmizdə hakimiyyətdə olduğu bütün dövrlərdə fəaliyyətini dövlət-vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimlənməsi, insanların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, humanizm ideyalarının möhkəm təmələ çevrilməsi, sivil cəmiyyətin formalaşması, idarəçilikdə demokratik ənənələrin bərqərar olması istiqamətində qurmuşdur.***

Beləliklə, Azərbaycanın müasir tarixinin 35 ili Ulu Öndərin ölkəmizin demokratik inkişafının, xalqın hüquq və azadlıqlarının keşiyində dayanması kimi xarakterizə olunur.

## Sovet Azərbaycanında Ulu Öndərin yaratdığı reallıq

İnsanların hüquq və azadlıqları sözsüz ki, tək hüquqi müstəvidə tam olmur. Bunun siyasi, iqtisadi, həm də mənəvi tərəfləri var. Ölkənin müstəqilliyi, iqtisadiyyatin inkişafı, vətəndaşların rifah halının yüksəlməsi, sabitliyin, dinc yaşayışın bərqərar olması, insanlara hərtərəfli azadlıqların verilməsi, maraqlarının təmin olunması onların hüquq və azadlıqlarının tamlığını şərtləndirən amildir. Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində yaradılmış siyasi, iqtisadi və mənəvi baza məhz buna xidmət etmişdir.

1969-1982-ci illərdə sovet ittifaqının tərkibində olan ölkəmizə rəhbərlik edən Ümummilli Liderimizin yaratdığı reallığa nəzər salanda aydın olur ki, başqa bir quruluşa tabe ölkədə qanunçuluğu və hüquq qaydasını möhkəmləndirmək, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaq, bütün sahələrdə geridə qalmış Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə ittifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmək, bütün bunların fonunda isə xalqın gələcək müstəqilliyinə zəmin yaratmaq üçün uzaqgörən addımlar atmaq hər siyasi xadimin gücü daxilində olan məsələ deyildi. Lakin Ulu Öndər bu reallığı yaratdı. Bu reallıqda hər zaman insan amili, xalqın rifahı, bu günü, sabahı ilə bağlı arzuları, hüquq və azadlıqları ön sırada dayanırdı və sonrakı mərhələlərdə də bunların bütün işlərlə paralel şəkildə həyata keçirildiyinin şahidi olduq.

## 1990-1993: 20 Yanvar, Xocalı faciələrində, Qarabağın işğalında və blokada Naxçıvanında insan hüquqlarının müdafiəsində

Ölkəmizdə insan hüquq və azadlıqlarının müdafiəsinə Ulu Öndər Heydər Əliyevin qayğısını dünya tarixində heç bir xalq öz liderindən görməyib. 1990-1993-cü illərdə faciələrlə, itkilərlə, əzab-əziyyətlərlə, hüquqlarının tapdalanması ilə qarşılaşan azərbaycanlılara mənəvi yanaşmada Heydər Əliyev nümunəsindən söhbət açmaq istəyirəm.

1990-cı illərin əvvəllərində ölkəmizdə hakimiyyət böhranı, xaos, anarxiya hökm sürürdü. Həmin dövrdə artıq ömrünün son anlarını yaşayan sovet imperiyası azadlıq və müstəqillik mücadiləsinə qalxmış Azərbaycan xalqını bu mübarizədən çəkindirmək üçün Bakıda qanlı 20 Yanvar faciəsini törətdi. Ölkə başçısı və dövlət strukturlarında çalışan bəzi məmurların qorxaqlığı və mərkəzə yarınmaq meylləri faciənin maneəsiz törədilməsinə geniş imkan yaratdı. Bu isə kütlələr arasında ümidsizliyin hökm sürməsinə səbəb oldu.

Heydər Əliyev bu məqamda xalqına, Vətəninə qarşı təcavüzə, xəyanətə, işğala dözməyib Moskvadan dünyaya sərt bəyanat verdi. Həyatının hər an təhlükədə olmasına baxmayaraq qətiyyətlə faciənin hüquqi-demokratik prinsiplərə zidd olduğunu, Azərbaycan xalqına qarşı hərbi təcavüzün SSRİ və Azərbaycan SSR rəhbərliyi tərəfindən həyata keçirildiyini bəyan etdi.

Xalq Ulu Öndərin bu qətiyyətli addımı ilə ümidsizlikdən çıxdı. İlk dəfə hüquqlarının müdafiə edildiyini, müstəqillik arzularına dəyər verildiyini, kimsəsiz olmadığını anladı.

1992-ci il fevral ayının 26-da nankor ermənilər tərəfindən Xocalı şəhərində törədilən analoqu olmayan soyqırımının dünya miqyasında tanınmasının da əsas səbəbkarı, təşəbbüskarı Ümummilli Lider olmuşdur. Hələ Prezident səlahiyyətlərini həyata keçirərkən erməni təcavüzünün qarşısının alınması məqsədilə təcili tədbirlər görülməsi üçün BMT Təhlükəsizlik Şurasının dərhal çağırılması xahişi ilə Təhlükəsizlik Şurasının sədrinə 26 iyul 1993-cü il tarixli yazılı müraciət etmişdir.1994-cü il 24 fevralda Milli Məclisin qərarı ilə hər il fevralın 26-sının "Xocalı soyqırımı günü" kimi yad olunması və bu barədə beynəlxalq təşkilatlara məlumat verilməsi ilə Xocalı soyqırımına ilk dəfə siyasi qiymət verilmiş oldu. Ulu Öndərin "Azərbaycanlıların soyqırımı haqqında" imzaladığı 26 mart 1998-ci il tarixli Fərman isə ümumilikdə soyqırımı qurbanlarının hüquqlarının müdafiəsinə xidmət edən mühüm dövlət sənədi xarakteri daşıyır.

1988-ci ildən 1994-cü ilin may ayınadək davam edən Birinci Vətən müharibəsi zamanı qonşuluqdan kənar ermənilər himayədarlarının və Azərbaycan hakimiyyətini zəbt edən səriştəsiz ünsürlərin dəstəyi ilə Qarabağı və Şərqi Zəngəzurun müəyyən ərazilərini işğal etmiş, minlərlə soydaşımızı ata-baba yurdundan didərgin salmış, işgəncə ilə qətlə yetirmiş, nəticədə Azərbaycan vətəndaşlarının hüquqları kobud şəkildə tapdanmışdır.

Hər zaman xalqının yanında olan, onların itirilmiş hüquqlarının müdafiəsinə qalxan Ümummilli Lider "Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir",- deyirdi və torpaqlarımızın azad ediləcəyini, soydaşlarımızın hüquqlarının bərpa olunacağını əminliklə ifadə edirdi: "Biz Qarabağ məsələsini həll edəcəyik. Vaxt lazımdır. Heç kim torpaqlarını Azərbaycandan ala bilməz. İşğal olunmuş torpaqlarımız mütləq geri qaytarılacaqdır. Nəyin bahasına olursa olsun".

1989-1990-cı illərdə artıq Naxçıvan ermənilər tərəfindən tamamilə blokadaya alınmışdı. Elektrik enerjisi, təbii qaz kəsilmiş, Bakı-Naxçıvan qatarı dayandırıldığından muxtar respublika yanacaqsız, ərzaqsız qalmışdı. Naxçıvan həmçinin informasiya blokadasına alınmış, insanların informasiya almaq hüququ məhdudlaşmışdı.

Heydər Əliyev 90-cı ildə Naxçıvana qayıtmasaydı, bu qədim yurd da Qarabağ kimi işğal ediləcək, naxçıvanlılar isə aclıq-səfalət içərisində məhv olacaqdı. Naxçıvanlılarla birlikdə eyni həyatı paylaşan, soyuq evdə yaşayan, evində və iş otağında çıraq işığında oturan Ulu Öndər şəxsi nüfuzu hesabına Türkiyə və İran İslam Respublikası ilə danışıqlar apararaq insanları ərzaqla təmin edirdi. Onların hüquqlarının bərpa olunması üçün ozamanki ali hakimiyyət qarşısında məsələ qaldırırdı.

Beləliklə, ölkə həyatında yaşanan yuxarıda adlarını qeyd etdiyimiz hadisələrin hər birində Ulu Öndəri insanların yanında, onların həm siyasi, həm də mənəvi hüquqlarının müdafiəsində görürük.

## Ölüm hökmünün ləğvi: Şərqdə ilk Azərbaycanda

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə Qayıdışı ilə həm 1918-ci ildəki kimi itirilməkdə olan müstəqilliyimiz, həm də həyatı hər an təhlükə ilə üz-üzə qalan xalq xilas oldu. Müstəqil Azərbaycanda yeni hakimiyyətlə ölkə sosial-iqtisadi inkişafa qədəm qoydu, eləcə də qanunun aliliyi təmin edildi, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması mühüm prinsipə çevrildi.

Böyük Qayıdışdan sonra ölkəmizdə eyni zamanda humanizm ənənələrinin təməli qoyuldu, 1995-ci ildə əfvetmə və amnistiya institutları yaranmağa başlandı. 22 yanvar 1998-ci il tarixdə Ümummilli Lider Heydər Əliyev "Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi haqqında" bəyanat verərək ölüm hökmünün ləğv olunduğunu bildirdi, bununla bağlı 3 fevral 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə qanunvericilik təşəbbüsü qaydasında müraciət etdi və 10 fevral 1998-ci il tarixdə ölüm cəzası ləğv olunaraq ömürlük azadlıqdan məhrumetmə cəzası ilə əvəz olundu. Şərqdə ilk dəfə məhz ölkəmizdə ölüm cəzasının ləğv edilməsi dünyada böyük əks-səda doğurdu.

Bu siyasətin nəticəsi olaraq Ulu Öndər tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanmış, 1993-2003-cü illərdə 7 dəfə amnistiya elan olunmuş, nəticədə minlərlə insan azadlığa qovuşmuşdur.

Heydər Əliyev siyasi kursunun davamı olaraq son 20 ildə Prezident İlham Əliyev tərəfindən də 37 əfv sərəncamı imzalanıb, 4 dəfə amnistiya elan edilib.

Ulu Öndər Heydər Əliyev tərəfindən imzalanan "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli Fərman, 1998-ci il 18 iyun tarixində təsdiq edilən "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", Azərbaycanda azad mətbuatın formalaşması, hər kəsin öz fikrini sərbəst şəkildə ifadə edə bilmək imkanı qazanması məqsədilə "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 1998-ci il 6 avqust tarixli Fərman ölkəmizdə insan hüquqları sahəsində ilk strateji sənədlərdir ki, bu gün Azərbaycan vətəndaşları onların bəhrəsini görür.

Sonrakı mərhələdə Prezident İlham Əliyevin 18 iyun 2007-ci il tarixdə imzaladığı "Azərbaycan Respublikasında İnsan hüquqları gününün təsis edilməsi haqqında" Sərəncam, sərəncama əsasən hər il 18 iyunun ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunması, norma¬tiv-hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı digər sənədlər yeni mərhələsinin başlanğıc nöqtəsi oldu.

## Üçdəbir hissəsi insan hüquqlarına əsaslanan ilk milli Konstitusiya

Qanunvericilik bazası olmadan sosial, iqtisadi və siyasi islahatların həyata keçirilməsinin mümkün olmadığını nəzərə alan Ümummilli Lider Heydər Əliyev ölkəmizdə hüquqi dövlət quruculuğuna bu bazanın yaradılmasından başladı. Bu isə öz əksini Onun rəhbərliyi ilə hazırlanmış, 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında tapmışdır.

Əsas Qanunumuzda insan hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədi kimi təsbit olunmuşdur. Konstitusiyanın üçdə bir hissəsini bu sahədəki mövcud beynəlxalq-hüquq normalarına əsaslanan müddəalar təşkil edir. Ən əsası isə Əsas Qanunumuzda insan və vətəndaş hüquq və azadlıqlarını qorumaq bütün hakimiyyət orqanlarının vəzifəsi kimi müəyyən edilmiş, onun 48 maddədən ibarət üçüncü fəslinin bütün müddəaları insana, onun ləyaqətinə, hüquqlarına hörmət ruhunda yazılmış, insan hüquq və azadlıqları ən yüksək dəyər kimi təsbit olunmuşdur.

## Konstitusiya Məhkəməsi və Ombudsman təsisatı dövlət və vətəndaş münasibətlərində yeni başlanğıc oldu

Ümummilli Lider yalnız qanunvericilik aktlarının qəbul edilməsinə deyil, onların həyata keçirilməsinə də xüsusi diqqətlə yanaşmış və məhz Onun təşəbbüsü ilə 1998-ci ildə ölkəmizdə ilk dəfə olaraq Konstitusiya Məhkəməsi yaradılmışdır.

2001-ci il 8 dekabr tarixdə isə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun qəbul edilməsi, Ombudsman təsisatının yaradılması və fəaliyyətə başlaması üçün maddi və hüquqi baza hazırlanmış, 2 iyul 2002-ci il tarixdə Azərbaycanın ilk Ombudsmanı seçilmişdir.

Hər iki təsisat hüquq müdafiə mexanizmi olaraq dövlət və vətəndaş münasibətlərində yeni bir başlanğıcın əsasını qoymuşdur.

## Qarabağ Zəfəri: insan hüquqlarının müdafiəsində dünyaya nümunə

Ümummilli Liderimiz bizə bu gün beynəlxalq aləmdə layiqli yer tutan, özünəməxsus dinamik inkişafı olan, hüquqi və demokratik dövlət quruculuğu sahəsində böyük uğurlar əldə edən Azərbaycanı miras qoyub. Dövlətimizin başçısı İlham Əliyev isə bu mirası Heydər Əliyev ideyaları əsasında qoruyur, siyasi və mənəvi varis kimi daha da zənginləşdirir.

Ötən 20 ilin nəticəsi olaraq 2020-2023-ci illərdə düşmən üzərində əldə etdiyimiz Böyük Zəfər çoxəsrlik tariximizin səhifələrinə 270 ildən artıq zamandan sonra yeni bir qəhrəmanlıq salnaməsi yazdı. O Zəfər ki, ölkəmizin ərazi bütövlüyünün və xalqın 30 il əvvəl tapdalanan hüquqlarının bərpası nöqteyi-nəzərindən dünyaya Azərbaycan nümunəsidir. Hüquqlarımız kimi, şərəfimiz də bizim üçün ali olduğundan, bu Zəfər həm də şərəfimizin xilası oldu.

Beləliklə, müstəqilliyi cəmi 32 il olan Azərbaycan insan hüquqları sahəsində yüzilliklər yaşlı müstəqil ölkələrdən heç də geridə qalmır. Belə isə müstəqilliyimizin 50, 100 yaşında daha da inkişaf etmiş dövlətdən və insan hüquqlarından danışacağıq.

***Mətanət Məmmədova***

***Məqalə, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanda insan hüquqları" mövzusunda elan etdiyi müsabiqəyə təqdim edilir.***

# Aİ-nin Mərkəzi Asiya "sevgisi"

## Yaxud, xüsusi nümayəndə Qazaxıstana niyə gedir?

**Aİ-nin sanksiyalar üzrə xüsusi nümayəndəsi David O'Sullivan noyabrın 28-30-da Astana və Daşkəndə səfər edəcək. Bu, onun bu il Mərkəzi Asiya ölkələrinə üçüncü səfəridir və məqsədi Aİ-nin Rusiyaya qarşı sanksiyalarla bağlı Qazaxıstan və Özbəkistan hakimiyyəti ilə "konstruktiv dialoq"u davam etdirməkdir. Bu barədə Avropa İttifaqının bu ölkələrdəki diplomatik nümayəndəliyinin mətbuat xidməti məlumat yayıb. Bölgəyə bu qədər tələsik təftişin səbəbi prezidentlər Qasım-Jomart Tokayev və Vladimir Putin arasında Rusiya prezidentinin Qazaxıstanı Rusiyanın ən yaxın müttəfiqi adlandırdığı uğurlu danışıqlar ola bilər.**



Haşiyə: ABŞ Maliyyə Nazirinin Terrorla Mübarizə və Maliyyə Kəşfiyyatı üzrə müavini Brayan Nelson Rusiya və Fələstinin HƏMAS hərəkatına qarşı sanksiyaların tətbiqi üçün gələn həftə Türkiyəyə səfər etməyi planlaşdırır. Məlumata görə, ABŞ Türkiyə hakimiyyətinin Rusiya şirkətlərinə qarşı birtərəfli sanksiyaları dəstəkləməsini gözləyir və onlardan yan keçməyə kömək etməyəcək. Digər məsələlərlə yanaşı, qeyd edilir ki, Brayan Nelson niyə Rusiya gəmiləri və təyyarələrinin Türkiyədə xidmət almağa davam etməsi sualını müzakirə etməyi planlaşdırır.

Nelson həmçinin Türkiyə hakimiyyətindən HƏMAS-a qarşı sanksiyalara əməl etməyi tələb edəcək. Hərəkat ABŞ və Avropa İttifaqında terrorçu kimi tanınsa da, Türkiyə bunu belə hesab etmir. Oktyabr ayında ABŞ Ədliyyə Nazirliyi Türkiyədə fəaliyyət göstərən Trend GYO-ya qarşı sanksiyalar tətbiq edib. Agentlik iddia edib ki, hüquqi şəxs "HƏMAS-ın investisiya portfelinin" bir hissəsidir. Ukraynada hərbi əməliyyatlar başlayandan sonra Türkiyə ABŞ və Avropa İttifaqının anti-Rusiya sanksiyalarına qoşulmaqdan imtina edib və bunu Rusiya ilə münasibətləri saxlamaq zərurəti ilə izah edib. Eyni zamanda, türk rəsmisinin yazdığı kimi, mart ayında Türkiyə Aİ və ABŞ-ın qadağan etdiyi malların Rusiya Federasiyasına tranzitini dayandırıb. Bu qərar ictimaiyyətə açıqlanmayıb.

Anti-Rusiya sanksiyalarına nəzarət etmək üçün Avropa Komissiyası Rusiya Federasiyasına qarşı tətbiq edilən misli görünməmiş məhdudlaşdırıcı tədbirlərdən yayınmamaq və hətta yan keçməmək üçün üçüncü ölkələrlə davamlı yüksək səviyyəli müzakirələri təmin etmək məqsədi ilə Aİ-nin sanksiyalar üzrə beynəlxalq xüsusi nümayəndəsi vəzifəsini təsis edib. Bu postu martda Qırğızıstana, apreldə isə Qazaxıstan və Özbəkistana səfər edən David O'Sullivan tutub. O zaman onun region ölkələrinə səfəri təşvişlə gözlənilirdi və onlar ikinci dərəcəli sanksiyalara düşməkdən, bununla da ən mühüm dünya bazarlarına çıxışı itirməkdən qorxurdular. O'Sullivan "bir sıra ölkələrdən qeyri-adi mal axınlarına" diqqət çəkərək xəbərdarlıqla kifayətləndi və bu məsələni araşdıracağına söz verdi.

Ehtimal etmək olar ki, O'Sallivan Rusiya prezidenti Vladimir Putinin Astana səfərinin nəticələrini müzakirə edəcək. Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Rusiya Federasiyasının rəhbərini əmin edib ki, o, Rusiyanın digər ölkələrlə ticarətinə qoyulan məhdudiyyətlərin əleyhinədir. O, Rusiya ərzaq məhsulları, toxum və gübrələrin dünya bazarına çıxarılmasına maneələrin aradan qaldırılmasını təklif edib.

Baxmayaraq ki, bir ay əvvəl Tokayev Berlinə səfəri zamanı Qazaxıstanın çoxvektorlu xarici siyasətə sadiq qalaraq Rusiyaya qarşı sanksiya rejiminə əməl edəcəyini və bununla bağlı Qərb tərəfdaşları arasında narahatlıq olmamalıdır, demişdi. Ölkə prezidenti yanında Milli Qurultayın (məşvərətçi-məşvərət orqanı) üzvü, politoloq Marat Şibutovun fikrincə, respublika öz iqtisadiyyatı üçün risk olduğu üçün sanksiyalar rejiminə əməl etməyə məcburdur. O, diqqəti Qazaxıstanın qəsdən diqqəti bu məsələyə yönəltməməyə çalışdığına diqqət çəkib, çünki bir çox şirkətlər müəyyən edilmiş qaydalara göz yumur. Qazaxıstan rəhbərliyi onların rusiyalı həmkarları ilə əməkdaşlıq etməsinə o qədər də fəal mane olmur.



Man'o Tədqiqat Təşəbbüsləri Mərkəzinin direktoru Bəxtiyor Erqaşevin sözlərinə görə, bu səfərlər Mərkəzi Asiya ölkələrinin, ilk növbədə Qazaxıstan və Özbəkistanın Qərbin sanksiya tələblərinə uyğunluğunun monitorinqi çərçivəsində həyata keçirilir və adi hal alıb. "Region ölkələrinin hökumətləri Avropa rəsmilərini əmin edirlər ki, bütün sanksiyalar tələbləri yerinə yetirilir. Xüsusilə, Özbəkistan Mərkəzi Bankı maliyyə əməliyyatlarına nəzarət məsələsində amerikalılar və avropalılarla fəal işləyir. Amma onlar gələndən bu o deməkdir ki, Mərkəzi Asiya ölkələrində biznes qurumları tərəfindən bu sanksiyaların faktiki həyata keçirilməsində problemlər var. Bunu ancaq bu cür təsvir etmək olar, çünki region ölkələrinin hökumətləri uzun müddət və gözəl şəkildə, tanınmış Asiya formatında öz zəmanətlərini verirlər. Ona görə də problem aşağı səviyyədədir", - deyə Erqaşev bildirib.

Ekspertin fikrincə, problem ondadır ki, 2022-ci ildə Ukraynada xüsusi əməliyyat başlayandan sonra Mərkəzi Asiya ən çox zərər çəkən regionlardan birinə çevrilib. Ölkələr Çin və Avropa arasında və geriyə yük axınlarının tranzitindən əhəmiyyətli gəlir itirib. İndi bu yük axını dayandırılıb, tranzit gəlirləri azalıb. Üstəlik, Mərkəzi Asiya ölkələrinin Avropa və Mərkəzi Asiya arasında öz ixrac və idxal yük axınları var idi, lakin Rusiya və Belarusun Aİ ilə qərb sərhədi bağlı olduğu üçün əksər şirkətlər yeni marşrutlar axtarmalı oldular. Həmin marşrutlar mövcuddur, lakin daha bahalıdır. Məsələn, Xəzər dənizi vasitəsilə Cənubi Qafqaza, oradan Türkiyə və Aİ-nin dəniz limanlarına gedən multimodal Transxəzər dəhlizi. "Ona görə də Mərkəzi Asiya ölkələri biznes itkilərini ən azı hansısa yolla necə bərabərləşdirmək barədə düşünməlidirlər. Və çətin ki, region ölkələrinin hökumətləri bizneslərin Rusiyaya paralel idxal üçün yüksək marjalı sxemlərdən pul qazanmaq üçün son imkanlarını bilərəkdən əngəlləsinlər. Çətin ki, sahibkarlar Vaşinqtonun və ya Brüsselin göstərişlərinə əməl etsinlər və Rusiya Federasiyasına öz gəlirli paralel idxal bizneslərini bağlasınlar. Buna görə də David O'Sullivan səmimi şərqli qarşılanacaq və Aİ-nin bütün tələblərini yerinə yetirəcəyinə bir daha əmin olacaq", - ekspert hesab edir.

Sanksiya təhdidləri ilə bağlı vəziyyət dalana dirənib. Nə Qazaxıstan, nə Özbəkistan, nə də digər region ölkələri Rusiya ilə qarşılıqlı əlaqəni dayandıra və ya əhəmiyyətli dərəcədə məhdudlaşdıra bilməz, çünki onlar üçün bu qarşılıqlı əlaqə həyati əhəmiyyət kəsb edir. Bölgədəki hər hansı bir ölkəyə qarşı istənilən bu cür sanksiya hərəkəti, siyasi olaraq, ölkəni avtomatik olaraq Qərbin əleyhdarlarının düşərgəsinə çevirir, həm də avtomatik olaraq onu Rusiya, Belarusiya ilə daha yaxın müttəfiqə çevirir və bu ölkələrlə Rusiya arasında daha da geniş qarşılıqlı fəaliyyətə töhfə verəcəkdir. Bu xüsusilə Özbəkistan və Qazaxıstana, Qərb şirkətlərinin maraqlarının olduğu daha ciddi iqtisadiyyata malik ölkələrə aiddir.

O'Sullivan və digər Aİ və ya ABŞ nümayəndələrinin səfəri daimi xatırlatma və təhdid siyasəti kimi qiymətləndirilməlidir. Ancaq qıcıqdan başqa, bu siyasətin necə ifadə olunacağını görünmür. Məsələn, hər hansı bir Qərb şirkəti regionu tərk edərsə, onun yerini şərti Çin şirkəti tutacaq. ABŞ və Avropa İttifaqının problemi ondadır ki, onların Mərkəzi Asiya iqtisadiyyatında praktiki olaraq ciddi mövqeləri yoxdur. İstisna Qazaxıstanın neft və qazıdır. Həmçinin Avropa liderlərinin Mərkəzi Asiyaya apardığı mekik diplomatiyasının arxasında Astananı və ya Daşkəndin nəyisə itirə və ya qazana bilməyəcəyini düşünməyə vadar edən heç bir ciddi möhkəmlənmə yoxdur. Amma başqa təhlükə də var - müxalifətin (Nursultan Nazarbayevin dövründə tutduqları mövqeləri itirmiş bir qrup elita) narazılığı. Onlar bu gün də hakimiyyətdədirlər, çünki Tokayevin başqa elitası yoxdur. İntiqam almağa cəhd etmək üçün belə bir səfərbərlik resursu mövcuddur və belə bir təhlükə var. Qərb strukturları bu variant işə salmağa cəhd edə bilər. Belə bir cəhd artıq 2022-ci ilin yanvarında edilib.

**V.VƏLİYEV**

# Paşinyanın anti-KTMT demarşı

## Bu addım Ermənistana və regiona nə vəd edir?

"KTMT bizim müttəfiqimizdir, tərəfdaşımız deyil. Bizim tərəfdaşımız NATO və KTMT-nin üzvü olmayan digər ölkələrdir". Bu sözləri Ermənistanın üçüncü prezidenti Serj Sarqsyan jurnalistlərlə söhbətində deyib.

"Müttəfiqlərlə dilinlə deyil, ağlınla işləməlisən. Əgər beyinlər yoxdursa, o zaman gözlənilən nəticəni ala bilməzsən. Müttəfiq sizin yerinizdə döyüşmək üçün orada deyil, lazım olduqda və mümkün olduqda sizə kömək etmək üçün oradadır. Ancaq bu, birtərəfli ola bilməz. Lazım gələrsə, ona kömək etməlisən – silahla olmasa da, müxtəlif platformalarda səsvermə yolu ilə və s.", - Sarqsyan Paşinyana səslənib.

### Ermənistanın eks-prezidenti: "Lazım gələrsə, daha böyük problemlərə toxuna bilərəm"

Ermənistanın eks-prezidenti bildirib ki, onun müttəfiqlərə haqq qazandırmaq niyyəti yoxdur. "Müttəfiq təklif edəndə və siz imtina edəndə o nə edə bilər? Yalvarmalıdır? Heç vaxt müttəfiqlərimizə haqq qazandırmaq istəyim olmayıb, Lazım gələrsə, daha böyük problemlərə toxuna bilərəm, amma bunun kök səbəbini tapmaq lazımdır. Niyə bu müttəfiq 30 il ərzində öz öhdəliklərini yerinə yetirdi, indi yerinə yetirmir? Çünki biz işləməyi bilirdik və əsl müttəfiq sayılırdıq", - deyə Sarqsyan əlavə edib.

### Emirhan Yörük: "İrəvan hakimiyyətinin Azərbaycan, Türkiyə və Gürcüstanla münasibətlərini tam düzəltmədən, sərhədlər açılmadan KTMT-dən çıxmaq kimi bir qərar verəcəyini düşünmürəm"

Bu arada, Türkiyənin Demokratiya və Sıçrayış Partiyasının (DEVA) üzvü, "Polletika" platformasının sədri, siyasi ekspert Emirhan Yörük mövzu ilə bağlı bildirib ki, KTMT postsovet məkanında olduqca nüfuzlu bir təşkilatdır. Hətta Şərq və Qərb doktrinaları arasında zəif formada olsa belə, hələ də Şərqin ən görkəmli simvollarından biridir. Lakin Ermənistanın indiki vəziyyətdə KTMT-dən çıxması real görünmür. Hazırda Ermənistanın, sadəcə, Rusiya və İranla sərhədlərinin açıq olduğunu nəzərə almaq lazımdır. Yəni İrəvan hakimiyyətinin Azərbaycan, Türkiyə və Gürcüstanla münasibətlərini tam düzəltmədən, sərhədlər açılmadan KTMT-dən çıxmaq kimi bir qərar verəcəyini düşünmürəm. Amma Ermənistanın KTMT-dən çıxmaq ehtimalı uzaq perspektivdə yüksəkdir.



### Türkiyəli siyasətçi: "Ukrayna müharibəsinə görə küncə sıxışan Rusiyaya qarşı bu addımları atmaq artıq hər zaman olduğundan daha çox mümkündür"

"Ermənistan hakimiyyəti məğlub olduqları İkinci Qarabağ müharibəsində Rusiyadan kifayət qədər dəstək almadığını iddia edir. Nikol Paşinyan iqtidarı da bu səbəbdən anti-Rusiya addımları atır. Onu da nəzərə almaq lazımdır ki, Ukrayna müharibəsinə görə küncə sıxışan Rusiyaya qarşı bu addımları atmaq artıq hər zaman olduğundan daha çox mümkündür.

Üstəlik, hər seçkidə zəfər qazanan Paşinyanın Rusiyaya qarşı atdığı addımlarına xalq da dəstək verir. Düşünürəm ki, Rusiyanın mövcud vəziyyəti və xalqın Paşinyana dəstəyi nəzərə alınarsa, onun anti-Rusiya siyasəti səhv sayılmaya bilər", - deyə türkiyəli siyasətçi əlavə edib.

Beləliklə, bu məsələdə qərar Ermənistanın olsa da, söz KTMT-nindir və ya daha dəqiq desək, Rusiyanındır. Artıq Kreml İrəvana son şans verdiyini də rəsmi şəkildə bəyan edib. Paşinyanın KTMT-nin növbəti tədbirinə dəvət edilməsi də nəyin necə olduğuna işarə edir.

**Afət Tahirqızı**

# AXCP-nin qeydiyyatı ləğv edilə bilər

## Partiyadan olan istefalarla Əli Kərimlinin verdiyi siyahıdakı 5004 nəfər azalaraq 5 minin altına düşəcək

***Dağıdıcı müxalifət düşərgəsində baş verən aşağılarla yuxarılar arasındakı qarşıdurmalar partiyalar daxilindəki çatları genişləndirib. Artıq sədrlərin anormal çıxışlarına, dövlətçilik əleyhinə yönələn fəaliyyətlərinə dözmək istəməyən sıravilər çıxış yolunu istefalarda görürlər. Daha doğrusu artıq AXCP daxilində ara - sıra qeydə alınan istefalar son vaxtlar kütləvi xarakter alıb. Bunda əsas səbəblərdən biri kimi Əli Kərimlinin ABŞ-ın və Qərbin bir sıra qaranlıq dairələri ilə Azərbaycan dövlətinin maraqlarına uyğun gəlməyən əməkdaşlığa getməsi, əlaqələr qurması göstərir.***



Digər tərəfdən Ə.Kərimlinin torpaqlarımızın erməni işğalından azad edilməsini "yarımçıq qələbə" adlandırması və bu istiqamətdə ABŞ dövlət departamentinin layihəsi kimi fəaliyyət göstərən Sevinc Osmanqızının TV-sində tez-tez çıxışlar etməsi daxili narazılıqları və etirazları istefalarla əvəzlənməsinə gətirib çıxarıb. AXCP-dəki narazılıqlar sırasında Ə.Kərimlinin avtoritar idarəetmə sistemi qurmasıdır. Yəni Ə.Kərimli kobud nizamnamə pozuntusu edərək kimi istəyir partiyadan uzaqlaşdırır, kimisini də özünə müavin və ya kollegial idarəetməyə üzv seçir. Bütün bu kimi rüsvayçı idarəetmə istefaların sürətlənməsinə gətirib çıxarıb.

ANALİZ

AXCP-də daha bir istefa

Fəal cəbhəçilərdən olan Tərlan Babayev də partiya sıralarından getdiyini bəyan edib. AXCP Ali Məclisinin və Təşkilat şöbəsinin üzvü, bir müddət AXCP Nizami rayon şöbəsinə sədrlik etmiş Seymur Əhmədzadə də partiyadan istefa verib. Partiya daxilindən sızdırılan məlumata görə Seymur Əhmədzadənin Əli Kərimli ilə problemləri olub. AXCP sədrinin tutduğu ikili mövqe Seymur Əhmədzadə kimi gəncləri hiddətləndirib. Daxil olan məlumatda o da bildirilir ki, AXCP-nin sonuncu qurultay şousu bir çox cəbhəçinin narazılığına səbəb olmuşdu. Bu səbəbdən də AXCP-dən istefa verənlərin sayı daha da artacaq. Belə getsə, AXCP-nin reyestrindən keçmək üçün Əli Kərimlinin verdiyi siyahıdakı 5004 nəfər azalır və 5 minin altına düşür.Qanuvericiliyə istinad olunsa o halda yaxın vaxtlarda Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP-nin qeydiyyatı ləğv olunacaq. Çünki, "Siyasi partiyalar haqqında qanuna" görə, partiyaların dövlət qeydiyyatına alınması üçün 5 min imza tələb olunur. AXCP-nin isə qeydiyyata alınmsı üçün lazım olan imzası yoxdur. Daha doğrusu topladığı imzalar istefaların baş verməsi səbəbindən azalmada davam edir. Deməli AXCP-nin qeydiyyatının ləğv edilməsi qaçılmazdır.

### İlham Hüseynli istefaya hazırlaşan cəbhəçiləri fikirlərindən çəkindirmək üçün onları şantajla hədələyir

Görünən ondan ibarətdir ki, Ə.Kərimli və trol dəstəsi digər cəbhəçiləri istefa fikrindən çəkindirmək üçün jantaj, hədə metodundan istifadə etməyə başlayıblar. Əli Kərimlinin tapşırığı ilə hazırda AXCP-dəki trol dəstəsinə rəhbərlik edən İlham Hüseynli və dəstə üzvləri Seymur Əhmədzadə və Pərvin Hüseynli istefa verdiklərinə görə sosial şəbəkələrdə təhqir olunurlar. Hətta pulla şirnikləndirməklə qərarlarından imtina edilmələrinə də cəhdlər göstərilir. Lakin istefa dalğası başlandığı üçün onu dayandırmaq mümkün deyil. Bu isə onu göstərir ki, yaxın vaxtlarda AXCP fəaliyyətini dayandıracaq. Sosial şəbəkələrdə Ə.Kərimlinin idarəetməsinə və partiyadan olan istefalara sosial şəbəkə istifadəçilərinin hərəsi bir cür münasibət bildirir. Onları ixtisarla təqdim edirik:

Farid Mustafa Mustafayev:
-Bu belədə olmalı idi. Çünki, partiya istiqamətini öz şəxsi prinsipi və istəkləri naminə idarə edən birisinin üzvlərinin hər birini belə sonluq gözləyir. Özünü lider adlandırmaqla lider olmursan.

Ziya Paşayev:
-Əli Kərimli nağılı bitdi.

Sevinc Əliyeva:
- Belə də olmalı idi

Bayram Xudayarov:
- Belə görünür istefalar davam edəcək

Oruc Mahmudov:
-Yarpaq tökümü davam edir

İlhamə Kərimova:
-Əli Kərimli siyasətin xəyanət simvoludur. Onu tərk edən insaların hamısının məhz bir səbəbi var: Xəyanət!

Cavid Mehdizadə:
-Artıq hər kəs Əli Kərimlinin iç üzünü görür

Namiq Məmmədov:
-AXCP - üzvlərinin partiya sıralarından uzaqlaşması, adıçəkilən partiyanın idarəçilərinin əsl niyyət və amalının artıq dalana dirəndiyinin şərhsiz ifadəsidir.

Alida Aslan:
-AXCP üzvləri Əli Kərimlinin illərdi yalnız öz mənafeyi üçün çalışdığını görürlər.

Kənan Islamov:
-Əli Kərimli və bunun kimilər ermənilərə satılmaqla özlərinin ermənilərə olan sevgilərini və Azərbaycana olan nifrətlərini sübut eləyirlər.

Yalçın Abdullazadə:
-Təmsil olunduğu partiyadan istefa ciddi səbəblərdən xəbər verir.

Lalə Məmmədova:
-Müxalifətin fəaliyyəti ancaq ikiüzlülük və satqınlıqdan ibarətdir.

***İ.ƏLİYEV***

# AXCP-də növbəti istefa dağlası: Əli Kərimli nə üçün istefa vermir?

***İki gündür sosial şəbəkələrdə AXCP üzvlərinin istefaları ilə bağlı paylaşımlar görünməkdədir. İstefa verənlər bir qayda olaraq Əli Kərimlinin diktatorluğundan, onun AXCP-də yaratdığı antidemokratik rejimdən bəhs edirlər. Amma Əli Kərimlinin də ətrafı boş dayanmır, istefa verənləri şərləyir, təhqir və linç edirlər. Hər iki hal Azərbaycan ictimaiyyəti üçün yeni deyil. Ona görə də təəccüblənmirik. Çünki Azərbaycanda siyasətə və sosial şəbəkələrə təhqiri elə Əli Kərimli və onun rəhbərlik etdiyi AXCP gətirib... Qısası, Əli Kərimlinin təhqirlərindən bezmiş Pərvin Hüseynli adlı sabiq cəbhəçi xanım facebook hesabında paylaşdığı statusla bir çox mətləblərə aydınlıq gətirib, hətta Əli Kərimlini və AXCP-ni ifşa edib.***



*Ramil Vəlibəyov YAP Nizami rayon təşkilatının sədri*

Birincisi, Pərvin Hüseynli bildirir ki, bir binanın 6000 sakini olsa da, AXCP-nin heç 5000 üzvü yoxdur. Onun sözlərinə görə, zamanında aksiyalarda, mitinqlərdə öndə gedənlər indi AXCP-dən və Əli Kərimlinin ətrafından uzaqlaşıblar.

İkincisi, Pərvin Hüseynli Əli Kərimliyə müraciət edərək deyir ki, sən necə bir müxalifət liderisən, üzvlər sənə öz sözünü deməyə qorxur? Sən necə bir lidersən ki, sənin partiyanda adamların haqqları yeyilir? Şikayət edənlərin şikayəti zibil vedrəsinə atılır, amma sənə yaxın olanların sözləri ilə oturub-durursan, onlar kimi deyir onları partiyadan qovursan.

Üçüncüsü, "ay məhkəmələrdən ədalət istəyib özü ədalətə tüpürüb tullayan adam" – deyən Pərvin Hüseynli əlavə edir ki, sən heç öz partiyanda azadlıq və azad düşüncə yarada bilmirsən.

Dördüncüsü, Pərvin Hüseynli sadə, həyatını AXCP üçün həsr etmiş saf cəbhəçiləri də nəzərə alaraq xüsusi qeyd edib ki, kənara atılan da, təhqir olunan da, əli boş qalan da elə həmin şəxslər olurlar.

Beləliklə də, xanım cəbhəçi reallığı dilə gətirsə də, əslində yeni bir şey demədi. Çünki bunu biz illərdir deyirik. AXCP-də olan sadə, saf üzvlərin əslində Əli Kərimlinin övladlarının xaricdə rahat, şad-xürrəm yaşamaları üçün çalışdıqlarını faktlarla sübuta yetirmişik. Onlar başa düşməlidirlər ki, Əli Kərimli demokratiya, insan hüquqları, sosial dövlət ideyalarına tüpürmüş, maddi maraq üçün çalışan bir diktatordur. Elə ona görə də sadə bir çəhbəçinin onun üçün dəyəri yoxdur. Məhz bu səbəbdən də cəbhəçilər onun istefasını tələb etməlidirlər. Əgər onlar üçün əlavə faktlar lazımdırsa, Vahid Məhərrəmli, Dilarə Miriyeva, Aydın Əliyev kimi veteran cəbhəçilərlə söhbət edə bilərlər...

Onu da qeyd edək ki, AXCP-də olan bu istefa dalğalarından sonra Əli Kərimlinin istefası məsələsi gündəmə gəlməlidir. Partiyanı idarə edə bilməyən, istefaların qarşısını ala bilməyən, yeni üzvlər cəlb etməyi bacarmayan biri partiya sədri olaraq qala bilməz. AXCP-də olan gənclərə meydan açılmalıdır. Nə zamana qədər AXCP Əli Kərimlinin girovluğunda qalmalıdır? Seymur Həzi nə üçün Əli Kərimlinin kölgəsində olmalıdır?

AXCP-də baş verən istefa dalğalarından sonra Ədliyyə Nazirliyinin müvafiq qurumları da hərəkətə keçməlidir. AXCP partiya kimi qeydiyyatdan təxminən 5004 nəfərlə keçib. Elə iki gündə 5-10 nəfər istefa verib. Deməli ki, AXCP üçün 5000 nəfərlik siyahı artıq reallığı əks etdirmir. Deməli ki, bu partiyanın qeydiyyat məsələsinə yenidən baxılmalıdır.

P.S. Pərvin Hüseynli statusunda qeyd edib ki, onu təhqir etsələr, müsahibə təkliflərinə razılıq verəcək. Məncə artıq zamanıdır. Həm təhqir olunursunuz, həm də şərlənirsiniz. Nə qədər gec deyil, açın sandığı, tökün pambığı...

# "AXCP və "rəhbərliyi" yaxşı başa düşür ki..."

"Azərbaycan Xalq Cəbhəsi Partiyası ətrafında müşahidə olunan proseslər, xüsusən "siyasi təsisatdan qopmalar" gecikmiş reallığın inikasıdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib. Deputat sözlərinə belə davam edib: "Bildiyiniz kimi, qanunvericiliklə siyasi partiyalar qarşısında konkret vəzifələr müəyyən olunur və xüsusən vətəndaşların siyasi iradəsinin ifadə olunmasında siyasi partiyalar müstəsna rola malik olur. Lakin Azərbaycan Xalq Cəbhəsi Partiyası fəaliyyətinin bütün dövrlərində Azərbaycan dövlətinin və Azərbaycan xalqının mənafeləri ziddinə fəaliyyət göstərmiş, hətta Vətən müharibəsi və antiterror tədbirlərində bu "partiya" və "funksionerləri" açıq şəkildə dövlət və xalq əleyhinə mövqedə qərarlaşmışlar.

Azərbaycan Xalq Cəbhəsi Partiyası və "rəhbərliyi" yaxşı başa düşür ki, özünün ən qüdrətli dönəmini yaşayan Azərbaycan Respublikasının siyasi həyatında onlara yer yoxdur. Bu mənada, dərnək yeganə şansı Azərbaycan dövlətinin siyasi qüdrətinin, iqtisadi potensialının və müdafiə və təhlükəsizlik qabiliyyətinin zəifləməsində görür və "partiya" bu istiqamətdə anti-Azərbaycan mövqeyi tutmuş beynəlxalq subyektlərin bu və ya digər formada Azərbaycan əleyhinə tezislərini müdafiə edir. Təsadüfi deyil ki, qeyri-dost davranışlar sərgiləyən beynəlxalq subyektlərlə münasibətlərimiz gərginləşən kimi Azərbaycan Xalq Cəbhəsi və onun müttəfiqləri olan digər antimilli ünsürlər birlikdə Azərbaycan dövləti daxilində təzyiq mühiti yaratmağa, qarşıdurmalar reallaşdırmağa çalışırlar. Təbii ki, özünün ən qüdrətli dönəmini yaşayan Azərbaycan Respublikasında bu kimi antimilli fəaliyyətlərin heç bir perspektivi yoxdur və illər uzunu Əli Kərimovun yalanlarına və şəxsi ambisiyalarına alət olmuş üzvlər tədricən bu reallığın fərqinə varmaqdadır.



DEPUTAT MÜNASİBƏT BİLDİRDİ

Bu mənada, AXCP-dən qopmalar hələ prosesin başlanğıcıdır, "partiyanı" bundan sonra daha ciddi rüsvayçılıqlar gözləyir. Partiyadan istefa verənlərlə bağlı isə AXCP-nin sosial media çirkabında başlatdığı təhqir kampaniyası isə bu "təşkilatın" nə qədər iyrənc və siyasi etikadan kənar konsepsiyaya əsaslandığını bir daha ortaya çıxarır".

***Ayşən Vəli***



# Qayınana-gəlin, yoxsa mehriban düşmənlər?

***İki qadın var ki, onlar üçün sevimli və əziz olan sadəcə bir kişi var. Bu iki qadın kimdir? Biri yaş və həyat təcrübəsi nisbətən çox olan qayınana, digəri də gənc yaşdakı gəlin. Hər ikisi üçün sevimli və əziz olan sadəcə bir nəfərdir. Bu kişi, həmin qadınlardan birinə görə, böyüdüb boya-başa çatdırmaq üçün əlindən gələni əsirgəmədiyi, şəfqət və mərhəmətlə əzizlədiyi, haqqında xəyallar qurduğu oğul; digərinə görə isə, ömür yolunu birgə addımlayacağı, həyatını bölüşəcək yeganə könül həmdəmi həyat yoldaşıdır. Qaynana-gəlin münasibətləri ailə daxilində aktuallığını itirməyən və daima gündəmdə olan məsələlərdəndir. Bəs niyə qaynana-gəlin mehriban düşmən kimi qələmə veririlir? Bu münasibətləri necə tənzimləməli? SİA mövzu ilə bağlı araşdırma aparıb.***

### Qayınana-gəlin münasibətləri sadəcə iki nəfərə təsir edir?

Dəfələrlə “bu mənim həyatımdı, heç kim qarışa bilməz”, “həyatımı istədiyim kimi yaşayaram və buna görə də heç kimə hesab vermək məcburiyyətində deyiləm” kimi ifadələrlə qarşılaşırıq. Bu tərz fikirlər şəxsi məsələlər haqqında deyildiyi təqdirdə məqbul sayılsa da, cəmiyyətlə əlaqəli mövzularda deyildikdə məsuliyyətsizlik kimi qəbul olunur. Qaynana-gəlin münasibətləri də iki əsas üzərində dayanır. Bunlardan biri şəxsi məsələlərə aiddir, digəri isə cəmiyyətlə əlaqəlidir. Belə ki, qaynana və gəlin arasındakı mübahisə böyüyüb münaqişəyə çevrildiyi təqdirdə, oğlan/ər nə edəcəyini bilmir, uşaqlar və yaxın qohumlar isə bundan təsirlənir. Belə münaqişələrin yaşandığı ailələrdə böyüyən uşaqlar qohumlar ilə münasibətdə problemlərlə qarşılaşır, üstəlik gələcəkdə öz ailələrində gördüklərini tətbiq etməyə çalışırlar. Hələ dünyanı yenicə dərk edən uşaq üçün ən çox sevdiyi iki insandan biri anası, digəri də nənəsidir. Bu iki sevdiyi insanın bir-birilə yola getmədiyini görən uşaq böyüyəndə bir çox insanla yola gedə bilməyəcəyi düşüncəsinə qapıla bilər ki, bu da uşağın sosiallaşmasına maneədir. Qarşılıqlı münasibətlər şüur altına yerləşir və həmin uşaq böyüyüb ailə qurandan sonra gördüklərini öz ailəsinə və ya qaynanasına tətbiq etməyə çalışır. Belə davam edərsə bu nəsildən-nəslə keçməyə başlayar. Məsələyə bu prizmadan nəzər salanda iki qadın (qaynana-gəlin) arasındakı münasibətin və bunun düzəldilməməsinin cəmiyyət üçün necə böyük fəsadlara səbəb olduğunu görə bilərik.

### Nə üçün mübahisə baş verir?

Niyə iki şəxs arasında mübahisə düşür? Bunun bir neçə səbəbi var. Münasibətlərin münaqişəyə çevrilməsi: Əslində tərəflər arasındakı mübarizə güc mübarizəsidir. Yəni hər iki qadın-qaynana və gəlin əhəmiyyət verdikləri kişiyə sahib olmaq, onun üçün əvəzolunmaz görünmək və bunu isbat etmək istəyir. Bu, bir mənada daxildə gizlənən “eqo”nun rahat olmasıdır. Belə düşüncələrin nəticəsi olan yersiz qısqanclıqlar ailə fərdlərinə öz mənfi təsirini göstərir və onlar arasındakı bağları qoparır. Yanlış düşüncələr: İnsanların bir-birinə xor baxmağının səbəblərindən biri də yanlış düşüncələrdir. Elə buna görədir ki, çoxları bəzən mənfi düşüncələrin təsirilə suizənnə (bədgümana) qapılaraq, əslini araşdırmadan yanlış qərarlar verirlər.

### Münaqişədən qaçmaq üçün nə etməli?

Qarşılıqlı anlayış, bir-birini başa düşmək, kaprizlərdən uzaq xarakter və empatiya qaynana-gəlin münasibətlərindəki əsas faktorlardandır. Ailədaxili problemlərin ortaya çıxmaması üçün hər iki tərəf bunlara riayət etməyə çalışmalıdır. Gündəlik həyatda qarşılaşılan kiçik problemlər, anlaşılmazlıqlar, umu-küsülər qarşı tərəfi incitməyəcək tərzdə dilə gətirilməli, deyilməli, danışılmalıdır. Əks təqdirdə həmin kiçik problemlər böyüyərək sonradan düzəldilməsi çətinləşən mübahisələrə, dedi-qodulara, dava-dalaşa və qarşılıqlı nifrətə səbəb olar. Ancaq elə etmək lazımdır ki, aradan pərdə qalxmasın. Aradakı pərdə qalxdıqdan sonra deyilən sözün təsiri olmur.

Bundan əlavə ailə həyatı qurmaq istəyən tərəflər kənar təsirlərə (xüsusilə qeybət və dedi-qoduya) əsla əhəmiyyət verməməli, bunlara qarşı bütün “qapı”ları bağlamalıdırlar. Üstəlik başqası haqqında suizənnə qapılmamalı, bədgüman olmamalıdırlar. Valideynlər yeni qurulan ailənin müstəqil yuva (qurum) olduğu da yaddan çıxarılmamalı, lazım gəldikdə onlara arxa-dayaq olmalıdır. Bütün bu sadalananlardan əlavə üç tərəfin də üzərinə düşən müəyyən öhdəliklər var.

Qayınana gəlin, ailə böyükləri ilə gənclər arasında münasibətlər necə tənzimlənməlidir? Bu barədə psixoloq Vəfa Rəşidova ətraflı məlumat verib: “Bu problem hər zaman olub, var və daim olacaq. Yaşlı nəsillə gənc nəslin fikri üst-üstə düşməyə bilər. Bu normaldır, qəbul etmək lazımdır. Yaşlı nəsil hər şeyi dünyanı gördüyü kimi oğlunu və gəlinini elə görmək, idarə etmək istəyir. Amma insan olan yerdə daim yenilik və dəyişim var. Hər kəs anlamalıdır, dünyada daim inkişaf gedirsə, insanlar da dəyişir, onların fikirləri, dünyaya baxışı fərqliləşir. Gənc və yeni ailə qurmuş insan hər şeyin gözəl olmasını istəyir. İnsanlar yaxşı yaşamaq, ailəsini özü kontrol etmək evinin müasir dizaynda olmasını istəyir. Bu böyüklərə hörmətsizlik deyil.

Sadəcə, insanın öz istəklərini reallaşdırmasıdır. Böyüyə hörmət adı ilə gənclər hüquqlarını itirməməli, istəklərinin üzərindən xətt çəkməməlidir. Biz elə başa düşürük ki, öz istəklərimizdən, zövqlərimizdən, arzularımızdan böyüklərə, yaşlılara görə keçməliyik. Bu hörmət deyil. Böyüklərə, qayınana-qayınataya hörmət belə deyil. İnsanlar aralarındakı məsafələri qorumalıdır. Aradan pərdə götürüləndə qıcıqlıq yaranır, davalar başlayır, iş məhkəmədə boşanma ilə bitir. Ailəyə qayınana-qayınata müdaxilə edəndə bəy gəlinin gözündə avtoritet ola bilmir, gəlinin gözündən bəy düşür, xəyalındakı qəhrəman qəhrəmanlığını itirir. Düşünür ki, bəy özünü müdafiə etmək, sözünü deyə bilmə gücünə malik deyil. O zaman bu problemlər ortaya çıxır. Hər xanım istəyir ki, öz ailəsi olsun, ailəni həyat yoldaşı ilə özü idarə etsin. Biz hörmətlə öz seçimlərimizi həyata keçirməyi ayırmalıyıq. İstəməzdim ki, qayınana faktoruna görə ailələr dağılsın. Çünki gənc ailə səriştəsiz olur, problemlərdən özü çıxmaq, güclənmək istəyir. Kənar müdaxilələr isə buna imkan vermir. Sivil düşünmək lazımdır.

Hər zaman gəlin və qayınana-qayınata və gənc ailə məqamlarında sivil davranmaq lazımdır. Hörməti və aradakı pərdəni qorumaq lazımdır. Biz hörmətin nə olduğunu anlamalıyıq”.

### Qayınana gəlin münasibətləri barədə Quranda nə deyilir?

Gəlin, qayınana istərsə onunla, istərsə ayrı yaşaya bilər. Gəlinin qaynana ilə bir evdə yaşamaq məcburiyyəti, qaynana və qaynataya baxmaq məsuliyyəti yoxdur. Dində belə bir şeyi əmr edən hər hansı bir ayə və ya hədis yoxdur. Ər özünün, gəlin özünün ata-anasına baxmalıdır. ”Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: ”Uf!” belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!

Onların hər ikisinə rəhm edərək təvazökarlıq qanadının altına al və: ”Ey Rəbbim! Onlar məni körpəliyimdən tərbiyə edib böyütdükləri kimi, Sən də onlara rəhm et!”- de. (İsra, 23-24) Ümumiyyətlə əksər hallarda ərinə yaxşı davranan və ana qədrini bilən qadınlar, öz qaynanasına da yaxşı davranır, pis davrananlar isə pis davranır. Əlavə olaraq böyüklərə hörmət etmək və onlarla yaxşı rəftar etmək İslam dini tərəfindən tövsiyə edilən yaxşı davranışlardan biridir. Peyğəmbərimiz (s. a. v.) belə demişdir: ”Balacalarımıza mərhəmət etməyən, böyüklərimizə də hörmət etməyən bizdən deyil”.

Qaynana gəlin münasibətləri barədə maraqlı faktlar

- Qayınanası ilə bir evdə yaşayan qadınlarda stress əlamətlərinin daha tez əmələ gəldiyi sübut edilib. Elmi araşdırmalar qayınanaların ürək xəstəliklərinə səbəb ola biləcəyini üzə çıxarıb. Alimlərin sözlərinə görə, böyük ailədə yaşayan qadınların ciddi ürək xəstəliklərinə tutulma riski digər qadınlara nisbətən 3 dəfə çoxdur.

- Evdə həm bir qız övladı, həm də ana rollarının stressi ilə yaşamaq, qan təzyiqinin yüksəlməsinə və hətta şəkər xəstəliyinə səbəb ola bilərmiş. Ailə həyatının sağlamlığa təsirini ölçmək üçün aparılan araşdırmada təxminən 91 min sağlam, orta yaşlı qadın və kişi iştirak edib.

- Aparılan bu araşdırmalar ərzində 671 nəfərdə ürək-damar xəstəlikləri qeydə alınıb. Onlardan 339-u məhz ürək xəstəliklərindən, 6255-i isə digər səbəbdən dünyasını dəyişiblər. Eyni zamanda, yalnız öz həyat yoldaşları ilə yaşayan qadınların ürək-damar xəstəliklərinə tutulma riskinin, daha geniş ailədə yaşayan qadınlara nisbətən daha az olduğu üzə çıxıb.

- Alimlər bunun səbəbini geniş ailələrdə yaşayan qadınların stress ucbatından siqaret, içki kimi alışqanlığa meylliyi həmçinin qadının ailədə qaynana, qayınata, baldız, həyat yoldaşı kimi özündən nüfuzlu ailə üzvlərinə qarşı davranışlarda tez-tez rollara girmək məcburiyyətində qalması ucbatından daha çox stressə düşdükləri üzündən ürək xəstəliklərinə tutulmaları ilə izah edib.

- Qayınanası ilə bir evdə yaşayan qadınlarda stress əlamətlərinin daha tez əmələ gəldiyi sübut edilib. Elmi araşdırmalar qayınanaların ürək xəstəliklərinə səbəb ola biləcəyini üzə çıxarıb. Alimlərin sözlərinə görə, böyük ailədə yaşayan qadınların ciddi ürək xəstəliklərinə tutulma riski digər qadınlara nisbətən 3 dəfə çoxdur.

- Evdə həm bir qız övladı, həm də ana rollarının stressi ilə yaşamaq, qan təzyiqinin yüksəlməsinə və hətta şəkər xəstəliyinə səbəb ola bilərmiş. Ailə həyatının sağlamlığa təsirini ölçmək üçün aparılan araşdırmada təxminən 91 min sağlam, orta yaşlı qadın və kişi iştirak edib.

- Aparılan bu araşdırmalar ərzində 671 nəfərdə ürək-damar xəstəlikləri qeydə alınıb. Onlardan 339-u məhz ürək xəstəliklərindən, 6255-i isə digər səbəbdən dünyasını dəyişiblər. Eyni zamanda, yalnız öz həyat yoldaşları ilə yaşayan qadınların ürək-damar xəstəliklərinə tutulma riskinin, daha geniş ailədə yaşayan qadınlara nisbətən daha az olduğu üzə çıxıb.

- Alimlər bunun səbəbini geniş ailələrdə yaşayan qadınların stress ucbatından siqaret, içki kimi alışqanlığa meylliyi həmçinin qadının ailədə qaynana, qayınata, baldız, həyat yoldaşı kimi özündən nüfuzlu ailə üzvlərinə qarşı davranışlarda tez-tez rollara girmək məcburiyyətində qalması ucbatından daha çox stressə düşdükləri üzündən ürək xəstəliklərinə tutulmaları ilə izah edib. Əslində, qaynananızla yaxşı münasibət qurmaq heç də çətin deyil. Yaxşı gəlin-qaynana münasibəti qurmanız üçün bir neçə ipucu!

- Ondan daha dadlı yemək bişirməyə cəhd etməyin. Qoyun yoldaşınızın həyatında ən gözəl yemək bişirən qadın olaraq anası qalsın.
- Bəzi alış-verişlərdə xüsusilə onunla getmək istədiyinizi bildirin, əsasən, mətbəxlə əlaqəli alış-verişlərə.
- Oğlu ilə baş-başa vaxt keçirməyi özlədiyini düşünərək bəzən buna planlı və səmimi şərait yaradın.
- Hər görüşdüyünüzdə bir tərif edin amma çox yox. Süni və qeyri-səmimi olmayın.
- Getdiyiniz hər istirahətdən ona balaca da olsa bir hədiyyə alın.
- Arada ona özəl yeməklər hazırlayın və evinizə dəvət edin.
- Xoşbəxt bir evlilik necə qurulur mövzusunda onun təcrübələrindən yararlanın.
- Özəl günlərini unutmayın, 8 Mart, ad günləri və s.
- Ana demək üçün nə tələsin nə də gecikin. Bunun üçün ən uyğun vaxtı gözləyin.
- Fikirlərinə önəm verdiyinizi göstərin.
- Ən önəmlisi oğlunu çox xoşbəxt edin!

***Ləman Sərraf***

ARAŞDIRMA

# Qonşu məsləhəti ilə dərman içməyin!



***Bütün dünyada olduğu kimi Azərbaycanda da məsləhətlə və təyinatsız dərman istifadəsi xalqın sağlamlığına və müalicə xərclərinə çox təsir edir. Xüsusilə yaşlı xəstələrdə məsləhətlə dərman istifadəsinin hər gün çoxalması səbəbindən ciddi sağlamlıq problemləri yaranır.***

Həddindən artıq və həkim tövsiyəsi olmadan dərman istifadəsi arzuolunmaz vəziyyətlərə səbəb ola bilər. Qonşu, qohum, tanış vasitəsi ilə dərman alıb içərkən bu davranışın allergik reaksiyalar, qaraciyər və böyrək çatışmazlığı yarada biləcəyi ehtimalı da nəzərə alınmalıdır. Çünki birlikdə qəbul edilən dərmanların tərkibindəki maddələr bir-biri ilə reaksiyaya girə, daxili orqanlara zərər verə bilər.

Dərmanların, xüsusilə də antibiotiklərin düzgün, doğru dozada və doğru zamanda istifadə edilmədiyi təqdirdə orqanizmə zərər verə biləcəyi, gözlənilməz xəstəliklər və yan təsirlərin meydana gələ biləcəyi diqqətdə saxlanmalıdır. Soyuqdəymə və qripin daha çox evdə dincəlməklə, bol maye içməklə və sadə dərmanlarla müalicə oluna biləcək xəstəlik olduğunu qəbul etməyən, daha tez sağalmağa çalışan insanlar çeşidli dərman istifadəsinə, fərqli həkim müalicəsinə ehtiyac hiss edir. Nəzarətsiz və fərqli şəkildə dərman istifadəsinin xəstəliyi ağırlaşdırma ehtimalı var. Hətta vitaminin belə həkim məsləhəti olmadan qəbul edilməməsi vacibdir.

Xüsusilə qrip müalicəsində antibiotiklərdən istifadə yolverilməzdir. Hazırda antibiotik istifadəsi ciddi problemdir. Qrip zamanı antibiotik tələb olunmur, amma həkimlər məsləhət görür ki, qripdən sonra bakterial infeksiya varsa həkim təyinatı ilə istifadə oluna bilər. Əgər qrip zamanı bəlğəm, sarı-yaşıl axıntı yoxdursa antibiotik təyinatı doğru deyil. Antibiotiklərin lazımsız yerə istifadəsi təkcə zərərli deyil, həm də təhlükəlidir. Bir müddət sonra o antibiotik o infeksiyalara təsir gücünü itirir, xəstəliyi ram edə bilmir, bədən antibiotiklərə qarşı immun sistemi yaradır. Antibiotiklərdən çox istifadə floramızı pozur. Halbuki, antibiotikin məhv etdiyi bakteriyaların oqanizminizdə bir balansı, xidməti, faydası var.



### Ən çox yaşlı insanlar tövsiyə ilə dərman içir

Antibiotiklərin düzgün istifadəsi yalnız həkim nəzarəti altında və həkimin təyin etdiyi dozada olarsa mümkündür. Məsələn, tənəffüs yolu infeksiyaları üçün bir qutu antibiotik yazılıbsa, ikinci qutunu öz qərarınızla qəbul etməyin. Bunu yalnız həkim məsləhət görə, təyin edə bilər. Yaxud, iki qutu yazılan antibiotiki bir qutu qəbul edərək artıq sağaldığınızı düşünürək xəstəliyi təkrar gücləndirə bilərsiniz.



TƏHLÜKƏ

Müşahidələrə görə ölkəmizdə yaşlı xəstələrin istifadə etdiyi reseptsiz dərmanların əksəriyyəti ağrıkəsicilər, qəbizlik dərmanları və vitaminlərdir. Yaşlı xəstələr çox vaxt istifadə etdikləri bitki mənşəli məhsullar və vitaminlər barədə həkimlərinə məlumat vermirlər. Bununla belə, qeyri-dərman olan qida əlavələri də dərmanlarla eyni vaxt qəbul edilir deyə qarşılıqlı təsir göstərir, allergik reaksiyalar müşahidə olunur.

Yaşlı insanların tez-tez istifadə etdiyi bu tip dərmanlar və qida əlavələri mərkəzi sinir sistemini hədəf alır. Xüsusilə, antibiotiklər, ağrıkəsicilər, qan durulaşdıran dərmanlar, təzyiq dərmanları, tənəffüs yollarını açan dərmanlar, sidikqovucular və qan şəkərini azaldan dərmanlar eyni vaxtda qəbul edilir və ciddi yan təsirlərə səbəb olur. Yaşlılarda ən çox müşahidə edilən reaksiyalar depressiya, yaddaş pozulmaları, narahatlıq, ani yıxılma, qeyri-iradi hərəkətlərə səbəb olan xəstəliklər, qəbizlik və sidik qaçırmadır.



### Hər ağrı üçün dərman içilməməlidir

Həkimlər deyir ki, hər bir simptom və ya şikayət üçün dərhal dərman istifadə edilməməlidir. İstifadə olunan bütün dərmanlar həkimlə məsləhətləşdirilməlidir. Siqaret, spirt və kofeinli içkilərin qəbulu barədə həkimə müfəssəl məlumat verilməlidir ki, dərman təyinatı zamanı bunlar nəzərə alınsın. Dərmanlar həkim tərəfindən tövsiyə olunan dozada və müalicə cədvəlinə uyğun istifadə edilməlidir. İstifadə edilən dərmanlarla bağlı ən çik allergik reaksiya da olsa, mütləq həkimə bildirilməlidir. Bitki mənşəli olaraq satılan əlavələr yalnız həkimlərin məsləhəti ilə qəbul edilməlidir.

Xüsusilə yaşlı xəstələr qonşu, qohum məsləhəti ilə dərman qəbulundan uzaq olmalıdır. Çünki dərman tövsiyə edilərkən müalicə fərdi şəkildə aparılmalı və xəstə üçün ən uyğun dərman seçilməlidir. Tanışın, qonşunun məsləhət gördüyü dərman sizin bədəninizdə fərqli effekt verə, hətta sizi komaya belə sala bilər.

Həkimlər dərman təyinatını mümkün olan ən aşağı dozadan başlayırlar, orqanizm dərmana qarşı reaksiya verməsdikdə artırırlar, lakin məsləhətlə içdiyiniz dərman yüksək dozada ola və sizi öldürə bilər. Dərman mümkün olan ən aşağı dozadan başlamalıdır və doza tənzimlənməsi diqqətlə aparılmalıdır. Xüsusilə, depressiv insanların sakitləşdirici xüsusiyyətlərə malik olan dərmanları tövsiyə ilə içməsi sağlamlıqlarına ciddi təhlükə ola bilər.

***Lalə Mehralı***

---

# "ABŞ-ın məqsədi Orta Dəhlizi ələ keçirməkdir"




***"ABŞ hər zaman bu proseslərdə faktiki olaraq Azərbaycanın əleyhində olub". Bunu SİA-ya açıqlamasında politoloq Oqtay Qasımov deyib. Politoloqun sözlərinə görə, Ermənistan öz havadarlarının, xüsusilə də Fransanın və Qərbin dəstəyinə arxayınlaşaraq prosesi uzatmağa çalışır: "Ermənistan hesab edir ki, bu yolla qərbdən daha çox dəstək alacaq və danışıqlar prosesində vəziyyəti balanslaşdırmaq imkanı əldə edəcək.***

Onlar düşünür ki, bu halda imzalanacaq sülh sazişi Ermənistanın bir çox şərtlərini özündə əhatə edəcək. Fransa, ABŞ və Avropa İttifaqı bu prosesdə aktiv iştirak edir. Niyyət ondan ibarətdir ki, Ermənistana dəstək verməklə bölgədə rəqabət etdikləri Rusiyanı sıxışdırsınlar. Rusiyadan boşalan bu yeri qərb tutsun və Ermənistan da öz mövqeyini gücləndirsin. Burada Ermənistana verilən bu dəstəklə qərbin nüfuzunu artırmaq və Rusiyaya zərbə vurmaq planlanır. Ermənistan da məhz həmin təhriklərə uyaraq prosesi uzatmağa çalışır".

O.Qasımov bildirib ki, ABŞ senatının Azərbaycana qarşı qərəzli mövqeyi müstəqillik dövründə davamlı şəkildə görünür: "Senat 1992-ci ildə 907-ci düzəlişi qəbul edib. Hansı ki, həmin dövrdə Azərbaycan özü işğala məruz qalan tərəf idi. Hazırda da həmin siyasət davam edir. ABŞ on illər boyunca Qarabağdakı separatçı rejimə hər il on milyonlarla dollar humanitar yardım adı ilə yardım ayırırdı. Qarabağdakı separatçı rejimin nümayəndələrinin ABŞ-yə səfərlərinə icazə verirdi. Hansı ki, keçmiş potsovet məkanında heç bir separatçı qurumun rəhbərliyinə və orada yaşayan insanlara bu imkan tanınmırdı. ABŞ-də hazırda da "Dağlıq Qarabağ Respublikası"nın nümayəndəliyi hələ də fəaliyyət göstərir.

Nəzərə almaq lazımdır ki, həmin qurum ABŞ Ədliyyə Nazirliyi tərəfindən də qeydiyyata alınıb. Təbii ki, ABŞ bölgəyə yerləşmək istəyir və bu zaman da Azərbaycana təzyiqlər edib Ermənistanın könlünü alaraq İrəvan üzərindən bölgəyə yerləşməyə çalışır. Bu baxımdan ABŞ-nin marağı Rusiyanı bölgədə sıxışdırmaq, ondan boşalan yeri doldurmaq və maraqlarını təmin etmək, Ermənistan üzərindən Cənubi Qafqaza yerləşərək bölgəni tam nəzarətə götürmək, bununla da Orta Asiyaya çıxış əldə edərək bu coğrafiyadakı zəngin enerji yataqlarına, eyni zamanda Asiyanı Avropaya bağlayacaq ən əlverişli marşrut olan "Orta Dəhliz"ə nəzarətə ələ keçirmək məqsədi daşıyır".

***Rəşid Qarayev***



*Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Azərbaycan hakimiyyəti tərəfindən ölkədən "qovulmasının" səbəbləri barədə maraqlı məqamlardan danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

# Rusiyalı ekspert: "Azərbaycan USAİD-i bağlamaqla ABŞ-ı yerinə oturtdu"




*"Azərbaycan tamamilə suveren dövlətdir. Bu isə ABŞ-ın, Avropa İttifaqının və ermənilərin xoşuna gəlmir"*

**- Azərbaycan ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) ölkədə fəaliyyətini qadağan etmək qərarına gəlib. Bu addımdan əvvəl Azərbaycanın sentyabr ayında Qarabağda həyata keçirdiyi antiterror tədbirləri ilə bağlı ABŞ-ın qəfil və kifayət qədər sərt tənqidi oldu...**

- Azərbaycanın bu qərarının arxasında onun suverenliyinin qorunması və milli təhlükəsizliyinin təmin edilməsi dayanır, çünki bu Amerika agentliyi USAİD-in fəaliyyət göstərdiyi ölkələrin daxili siyasi proseslərinə Vaşinqtonun təsir alətidir. Belə olan halda, Bakı tərəfindən bu addım ABŞ-ın Azərbaycana qarşı son qeyri-dost və təxribat xarakterli addımlarına açıq-aydın cavabdır.

Bundan əlavə, bu, sadəcə olaraq tənqidə və balanssızlığa görə reaksiya deyil, həm də ABŞ-ın Ermənistanın tərəfində oynamasına açıq reaksiyadır. Aydındır ki, USAİD-in belə strukturları Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin diqqət mərkəzindədir. Hesab edirəm ki, Bakı qərarlar qəbul edərkən təkcə Amerika tərəfinin təxribatına siyasi reaksiyanın zəruriliyini deyil, həm də milli təhlükəsizlik mülahizələrini nəzərə alıb. Bakı hərtərəfli cavab sistemi nümayiş etdirdi. Başqa sözlə, Azərbaycan hakimiyyətindən yeni mümkün təhlükələr müəyyən olunduğu üçün onların qarşısını almaq üçün tədbirlər görülüb.




Niyə Vaşinqtonda Azərbaycana qarşı gördüyümüz belə bir reaksiya yarandı? ABŞ-da güclü və çox nüfuzlu erməni lobbisi var ki, o, hörümçək kimi ABŞ-ın demək olar ki, bütün əsas hakimiyyət institutlarına- həm icra, həm də qanunvericilik orqanlarınadək genişlənib. Bu, bir səbəb. İkincisi, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edən kimi Qarabağ problemi Qərb dövlətlərinin əvvəllər istifadə edə bildikləri Bakıya təsir rıçaqı olmaqdan çıxdı. Bu baxımdan, bu gün, açıq şəkildə gördüyümüz kimi, maskalar atılıb və Vaşinqtonun Bakıya qarşı açıq-aşkar təhdid, şantaj və siyasi təzyiq cəhdləri kampaniyası aparılır. Azərbaycan suveren və özünə hörmət edən ölkə kimi bu cür hərəkətlərə aydın, ardıcıl və vaxtında reaksiya verir. Bu təbii və layiqli reaksiyadır. Azərbaycan bu gün hətta fövqəldövlət statusuna malik bir dövlətə münasibətdə belə güzgü reaksiyasını verə bilər. Bununla da Bakı bir daha nümayiş etdirdi ki, Azərbaycan tamamilə suveren dövlətdir. Bu isə Vaşinqtonun xoşuna gəlmir. Bu, həm Fransanın, həm də Avropa İttifaqının xoşuna gəlmir. Bu qlobal erməni lobbisinin də xoşuna gəlmir.

Eyni zamanda qeyd etmək istərdim ki, Azərbaycan çoxvektorlu siyasət aparıb və aparır. Onun ABŞ-a güzgü cavabı o demək deyil ki, o, Vaşinqtonla qarşıdurma axtarır və ya onunla münasibətləri gərginləşdirməyə çalışır. Bakının müşahidə etdiyi reaksiya istənilən suveren dövlətin sağlam cavabıdır. Azərbaycanın bu gün fəaliyyət azadlığının və dövlətlərə belə cavabın əsası onun suverenliyinin və ərazi bütövlüyünün bərpası, iqtisadiyyat, maliyyə, hərbi qüdrət, səmərəli fəaliyyət göstərən hakimiyyət şaquli, dövlət aparatı və nəhayət, ölkəsinin milli maraqlarını müdafiə edən Azərbaycan Prezidenti İlham Əliyev varlığıdır.

Vaşinqtonun Azərbaycana qarşı belə kəskin reaksiyasının digər səbəbi isə Bakının Tehranla münasibətlərin normallaşdırılmasına razılıq verməsi olub ki, bu da İran ərazisindən Azərbaycanın Naxçıvan anklavına dəmir yolu və avtomobil dəhlizlərinin çəkilməsi layihəsinin icrasına başlanılmasına imkan yaradıb. Bu, Ermənistanın üçtərəfli bəyanatla bağlı öhdəliklərini, xüsusən də Zəngəzur dəhlizi ilə bağlı razılaşmanın 9-cu bəndini tamamilə pozmasına görə baş verdi. Bu, Paşinyanın həm anti-Azərbaycan, həm də anti-Rusiya qərarı idi. Bu şəraitdə Bakı əlini əlinin üstünə qoyub gözləyə bilməz. Ona görə də dəhliz indi İran ərazisindən keçəcək. Bu logistik əlaqə, həm iqtisadi, həm də siyasi cəhətdən Qoqolun sözləri ilə desək, özünü şallaqlayan Ermənistan istisna olmaqla, bu layihənin bütün iştirakçılarının xeyrinə işləyəcək.

**- ABŞ-ın Azərbaycana təzyiqlərini davam etdirməsi nə dərəcədə mümkündür, əsasən praktika?**

- ABŞ-ın Azərbaycana real təzyiq rıçaqları yoxdur. Azərbaycan Respublikasında effektiv siyasi hakimiyyət sistemi və onun strukturu sabit olduğundan Azərbaycanın daxilində vəziyyəti sarsıtmaq mümkün olmayacaq. Prezident Əliyev İkinci Qarabağ müharibəsinin qalibi, ölkənin suverenliyini və ərazi bütövlüyünü misli görünməmiş şəkildə bərpa etmiş ümummilli lider kimi Azərbaycan vətəndaşlarının tam etimadını qazanıb. Ölkənin sabit maliyyə-iqtisadi vəziyyəti var, iqtisadiyyat şaxələndirilib, bundan əlavə, İlham Əliyev son illər Mərkəzi Asiya ölkələri, eləcə də Rusiya və Türkiyə ilə iqtisadi əlaqələri fəal şəkildə inkişaf etdirir.

ABŞ-ın Azərbaycana təzyiq və ya "boğma" mexanizmləri praktiki olaraq yoxdur. Bundan əlavə, bu, Birləşmiş Ştatların özünün milli maraqlarına uyğun gəlməyəcək, çünki bu cəhdləri davam etdirsələr, Vaşinqton tərəfindən fəal şəkildə dəstəklənən Mərkəzi Asiya ölkələri bir daha əmin olacaqlar ki, ABŞ tamamilə etibarsız, ikiüzlü və ikiüzlü tərəfdaş, hər an arxadan bıçaq soxmağa hazırdır. Amerika antiazərbaycan yanaşmasını davam etdirsə, bu, yalnız özünə və Xəzər və Mərkəzi Asiya regionlarında maraqlarına zərər verəcək.

Unutmayaq ki, Avropa İttifaqının Rusiyanın enerji resurslarından məhrum qalması kontekstində Cənub Qaz Dəhlizi ən azı Cənubi Avropa dövlətləri üçün onların enerji təhlükəsizliyinin təmin edilməsi baxımından kritik əhəmiyyətə malikdir. Ona görə də Qərbdən Azərbaycana qarşı hansı sanksiyalar tətbiq oluna və ya həyata keçirilə bilər? Heç biri.

İctimai təbliğat sadəcə olaraq ritorikadır. Yenə deyirəm: Qərbin praktiki rıçaqları yoxdur. Bundan əlavə, Bakı ABŞ-ı öz yerinə oturtdu, lakin gələcək təmaslara və danışıqlar prosesinə qapını örtmədi.

**- İndi biz Ermənistan rəsmilərinin KTMT iclaslarında iştirakla bağlı kollektiv demarşını görürük. Bundan əlavə, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının rəhbərlərinin dünən Minskdə baş tutan görüşündən əvvəl Ermənistana hər hansı yardım göstərmək, KTMT missiyasını Azərbaycan-Ermənistan sərhəddinə yerləşdirmək məsələsini strukturun gündəliyindən çıxarıb....**




- Bu, gözlənilən vəziyyətdir. Biz Ermənistanda hakim "Vətəndaş sazişi" partiyasının nümayəndələrinin Rusiyaya ünvanladığı rüsvayçı bəyanatların dalğasını da görürük. Ermənistanda anti-Rusiya isteriyası formalaşmaqda davam edir.

Və bu, Ermənistanın hansısa qəfil dönüşü deyil, bu, İrəvanın tutduğu konkret siyasi kursdur. Hər nə qədər, bu gün Ermənistan XİN rəhbərinin müavinindən bir daha eşidilsə də ki, guya İrəvan KTMT-dən çıxmaq və Rusiyanın Gümrüdəki hərbi bazasını bağlamaq ssenarisini nəzərdən keçirmir, belə bir ssenarinin olması ehtimalı böyükdür, bu yalnız zaman məsələsidir: Paşinyan buna nə vaxt gedəcək. Və o, bu cür qərarları Ermənistanın və şəxsən onun baş nazir kimi alacağı bonuslar baxımından Qərbə ən baha qiymətə satmaq istəyir.

Eyni zamanda qeyd etmək lazımdır ki, Nikol Paşinyanın ölkə daxilində mövqeyi kifayət qədər güclüdür. O, seçicilərinə arxalanır. Ermənistanda isə anti-Rusiya kursu və Qərbə dönüş Paşinyanın dəstəyi ilə qarşılanır. Ermənistanın hazırkı baş nazirinin seçki perspektivləri elədir ki, o, gələn il növbədənkənar parlament seçkiləri keçirməyə, seçkilərdə qalib gəlməyə və bununla da bütün müxalifət meydanını əhəmiyyətli dərəcədə təmizləməyə hazırdır. Üstəlik, onun Qərbdən konkret dəstəyi, Vaşinqton və Parisin İrəvanın maraqları üzərində aktiv fəaliyyəti var. Açığı, onlar Paşinyana şəxsi təminat veriblər. Bu şərtlər altında özünü necə aparmalıdırsa, elə aparır.

**- Axı Ermənistanın hərəkətləri regionda parçalanma yaradır...**

- Bəli, amma bu, erməni elitasının və xalqının seçimidir. 2018-ci ildə Ermənistanda hakimiyyətə Qərb güc mərkəzlərinin himayədarı gəlib. Aydındır ki, "məxməri" inqilab rəngli inqilabın erməni versiyası idi. Sadəcə olaraq, Paşinyan hansısa məqamda təqlid edib, özünü Rusiya ilə dost kimi göstərməyə çalışıb. Amma Azərbaycan Ermənistanı məğlub edib öz ərazi bütövlüyü məsələsini həll edən kimi İrəvanın və Qərbin maskaları açıldı. Qərbin indi pərdə çəkməyə, gizlənməyə, oynamağa, iddia etməyə ehtiyacı yoxdur...

Amma bunların hamısı Ermənistanın problemləridir. İkinci Qarabağ müharibəsində Ermənistanın məğlubiyyətindən sonra Paşinyanı özünə lider seçən və onun səlahiyyətlərini bir daha təsdiqləyən xalq öz seçimini etdi. Əgər insan intihar etmək istəyirsə, bunun necə bitəcəyi barədə xəbərdarlıq edilir. Ermənistana da xəbərdarlıq edilir: əgər geosiyasi intihar etmək istəyirsə, bu, öz seçimidir. Belə bir seçimə görə məsuliyyəti erməni xalqı özü daşıyacaq.

**- Srağagün Paşinyanın partiyasının nümayəndəsi bəyan etdi ki, İrəvan Rusiyanın vasitəçiliyi ilə sülhə imza atmayacaq...**

-Sülh müqaviləsinə nail olmaq asan olmayacaq... İrəvan hələ də hər cür yolla bu prosesi dayandırmağa çalışır... Amma Ermənistan yenə də öz istəyi ilə təcrid olunmuş vəziyyətdə qalacaq...

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
28 noyabr
2023-cü il



# Hansı ipoteka növü daha sərfəlidir?

**ƏMLAK EKSPERTİ AYDINLIQ GƏTİRDİ**

"Nağd şəkildə mənzil almaq hər vətəndaş üçün əlçatan deyil. Bununla bağlı zamanla həm dövlətin, həm də özəl sektorun layihələri olub. Böyük tikinti şirkətləri var ki, reklamları gedir, böyük kompleksləri var. Orada ilkin ödəniş 10-20 faiz olur. Qalan məbləğ isə aylara bölünür. Bəziləri var ki, qısa müddətə kreditə verir. Bu zaman mənzillərin aylığı çox yüksək olur. Bəziləri isə normal iptekaya oxşayır, amma onların illik faiz dərəcəsi 10 faizdən yuxarıdır". Bu sözləri SİA-ya əmlak eksperti Elnur Fərzəliyev deyib.

Onun sözlərinə görə, dövlət ipotekasında isə güzəşli mənzillər 4 faizdən başlayır: "Normal ipoteka isə 7-8 faiz arasında dəyişir. Burada təbii ki, bəzi məqamlar var. Məsələn, bəzi mənzillərin aylıq ödənişi ucuz görsənir, amma burada dəyişən evin kvadratının az olmasıdır. Ümumi sahə az olduqca, ümumi məbləğ azalır və aylıq ödənişlərdə aşağı düşür.

Özəl şirkətlərin satdığı mənzillər var və reklam edirlər ki, "5000 manat verməklə ev sahibi ola bilərsiniz". Vətəndaşlar ödənişin az olmasını görüb bu mənzillərə üz tutur. Amma bu mənzillərin aylış ödənişi o qədər yüksək olur ki, bir neçə ay ödədikdən sonra vətəndaş bu məbləği ödəyə bilmir".

Ekspert bildirib ki, özəllər vətəndaşlardan rəsmi iş yeri tələb etmir, amma dövlət ipotekaları və güzəştli mənzillərdə rəsmi iş yeri tələb olunur: "2020-ci ildən Dövlət İpoteka və Zəmanət Fondu Bakı şəhəri üzrə 4 ərazidə, Sumqayıt, Xırdalan və Masazırda satışları başlayıb. Mindən çox vətəndaş bu yolla mənzil əldə edə bilib. Bu layihələr getgedə sadələşir. İpoteka və Zəmanət Fondunun təqdim etdiyi kirayə öhdəliyi ilə mənzil satışı digərlərindən daha rahatdır.



Yəni, burada illik faiz 4, sığorta haqqı isə tələb olunmur. Digər kreditli satışlarda illik sığorta tələb olunur.

Ən əsas üstünlüyü isə rəsmi iş yerinin tələb olunmamasıdır. Vətəndaş hərhansı kiçik sahibkarlıq, bizneslə məşğuldursa, vergi ödəyicisidirsə, ailə üzvlərindən biri xarici ölkədə çalışırsa və gəlirini rəsmi olaraq göstə bilirsə, həmin inslarada mənzil verilir. İlkin ödəniş isə illik kirayə qiyməti qədər olur. Məsələn, kirayə qiyməti 300 manatdırsa, 3600 manat ilkin ödəniş tələb olunur. Mənzillərin nəğd satış qiymətləri və aylıq kirayə qiymətləri real bazarda həmin evlərin satış və kirayə qiymətindən nisbətən aşağıdır".

***Ləman***

# "Abort valideynlər üçün bir seçim olmamalıdır"

"Abort etdirməyin səbəblərindən biri uşağın cinsi ilə bağlıdır. Məsələn, bəzi ailələr oğlan, bəziləri isə qız övladı istəyir. Amma tam əksi baş verdikdə selektiv aborta üz tuturlar. Bu məsələdə psixoloji cəhətdən daha çox təsir mövzusu var. Adətən, valideynlər ana-ata olacaq şəxslərə təsir göstərir. Əgər yaşca böyük şəxslər cinsiyyət mövzusunu önəmsizləşdirsə, gənc nəsil də bir o qədər əhəmiyyət verməz". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib.

Onun sözlərinə görə, uşağın cinsiyyətinə görə nəinki abort, hətta boşanma halları da olur: "Tərəflər anlamalıdır ki, uşaq ailənin dağılması üçün yox, daha da möhkəmlənməsi üçün verilir. Uşağın qız və ya oğlan olması əsas məsələ olmamalıdır. Bunlar xırda məsələlərdir. Çünki gələcək o uşağın hansı cinsiyyətə sahib olması heç kim üçün önəmli olmur. Əsas məsələ uşağın taleyi, uğurları, xoşbəxtliyidir. Hər iki cins uşaqdan insan eyni emosiyanı ala bilər".

Psixoloq sözlərinə davam edərək bildirib ki, əgər burada daha maddi məsələlər nəzərə alınırsa ki, oğul işləsin, pul qazansın, valideynə baxsın və s. bu halda belə düşüncələrə sahib insan ilk növbədə dönüb özünə baxmalıdır: "Təbii ki, bəzən tibbi göstəricilərə görə abort məcburi olur. Amma bu, bir seçim olmamalıdır. Psixologiyada belə bir şey var ki, uşaq ana bətnində artıq ona olan münasibəti hiss edir. Ona görə də valideynlər və ya nənə-baba bu baxımdan diqqətli olmalıdır".

***L. Sərraf***

**PSİXOLOQ FİKRİ**




# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Siqaret çəkən məktəblilərin aqibəti qanunla necə tənzimlənir?



**EKSPERT FİKRİ**

"Bir çox hallarda siqaret çəkməyi böyüklərin azad seçimi adlandırırlar. İlk baxışdan hər şey adi görünsə də, əslində heç də göründüyü kimi deyil. Siqaret çəkənlərin əksəriyyəti hələ məktəbli və ya azyaşlı olarkən artıq siqaret asılılığına məruz qalırlar. Milyonlarla tütün aludəçisi üçün siqaret böyük vaxtların deyil, məhz uşaqlıq dövrünün seçimidir. Hər kəsə məlumdur ki, siqaretə alışqanlıq onu çəkən nə qədər gəncdirsə, bir o qədər tez yaranır". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, hər bir valideyn ilkin olaraq evdə siqaretə qarşı təbliğat işləri aparmalıdır: "Ən başlıca isə valideynlər bu haldan özlərini çəkindirməlidirlər. Əgər uşaq evdə görürsə valideyn siqaret çəkir və bu zaman öz beynində bu işin yaxşı bir şey olduğunu formalaşdırır. Mütləq uşaqlarla siqaretin ziyanları barəsində danışıqlar aparmaq lazımdır. Siqaret cəmiyyət üçün, orqanizm üçün ziyanlıdır. Digər tərəfdən məktəblərdə siqaretə qarşı təbliğat işləri aparılmalıdır.

İnzibati Xətalar Məcəlləsinin 189-cu maddəsinə diqqət edək.

Yetkinlik yaşına çatmayanların tərbiyə və təlimi vəzifələrinin valideynlər və ya onları əvəz edən şəxslər tərəfindən üzrlü səbəblər olmadan yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə –

Bu Məcəllənin 189.1-ci maddəsində nəzərdə tutulmuş əməllər yetkinlik yaşına çatmayanların spirtli içki, narkotik vasitələr və ya psixotrop maddələr qəbul etməsinə və ya avaralıqla məşğul olmasına, cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmamış uşaqlar tərəfindən cinayət əlamətləri olan ictimai təhlükəli əməlin törədilməsinə və ya on dörd yaşından on altı yaşınadək uşaqlar tərəfindən inzibati xəta əlamətləri olan əməlin törədilməsinə səbəb olduqda cərimə tətbiq olunacaq".

***Ayşən Vəli***

## ELAN

**Hörmətli səhmdarlar**

16 dekabr 2023-cü il tarixdə növbəti növbədənkənar iclası keçiriləcəkdir.

**Gündəlik məsələlər**

1."Qazax ət" ASC-nin fəaliyyətinin dəyişdirilməsi barədə.

2. "Qazax ət" ASC-nin MMC-yə keçirilməsi.

3. Sair məsələlər

"Qazax ət" ASC-nin sədri Tahir Novruzov.

**Tel: 055-212-87-53**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**